ISSN 3135-4890 (Print)
E-ISSN 3135-4904 (Online)

# HORIZON

Multidisciplinary Scientific Journal

2026

VOLUME 1 | ISSUE 4 | 2026

**Horizon Multidisciplinary Scientific Journal**
**Journal Manager:** Nahiba Asgarova
**Editors-in-Chief:** Huseyn Imanov, Zamin Babazade
**E-mail:** horizonmsj.com
**ISSN:** 3135-4890
**E-ISSN:** 3135-4904
**DOI:** https://doi.org/10.5281/zenodo.21725139

Horizon Multidisciplinary Scientific Journal is an international, peer-reviewed scholarly publication dedicated to advancing high-quality research across a broad spectrum of academic disciplines.

**Frequency:** Every months

**Format:** A4

**Languages:** Submissions are accepted in Azerbaijan, English and other major academic languages.

**Registration:** The journal is officially registered and published in Azerbaijan. All submissions undergo a rigorous peer-review process to ensure the highest academic standards.

**Open Access:** Horizon Multidisciplinary Scientific Journal is an international based on a full open access model. The journal provides immediate and permanent open access to all articles in order to ensure the free and unrestricted dissemination of scientific knowledge.

All scholarly materials published in the journal are completely free of charge for users, and no subscription or access fees are required. Readers are allowed to freely read, download, copy, print, and share the articles. Such use is permitted provided that proper citation is given and authors' rights are respected.

For further details and submissions, visit https://horizonmsj.com/index.php/hmsjournal/en/index.

The editorial board bears no responsibility for the content of the published materials.

All authors are solely accountable for the accuracy and integrity of their articles.

The views expressed by the authors do not necessarily reflect those of the editorial board.

Reproduction of any material is permitted only with proper citation of the journal.

All materials are published in the authors' original version.

Edition: Volume 1, Issue 4, July – 2026
Passed in press in July 2026
Printed in July, 2026
Printing: Horizon Multidisciplinary Scientific Journal,
20 street, office 118, Nakhchivan, Azerbaijan.

© Horizon Multidisciplinary Scientific Journal

## Editorial Board Memmbers


- *Ahmet Ocak Akdemir - Agrı Ibrahim Chechen University*
- *Yüksel Akınay - Van Yuzuncu Yil University*
- *Zarovshan Babayeva - Nakhchivan State University*
- *Yasin Babazade - Nakhchivan State University*
- *Adnan Chetin - Van Yuzuncu Yil University*
- *Tayfun Chetin - Hakkari University*
- *Mahnur Jafarli - Nakhchivan State University*
- *Javadkhan Gasimov - Nakhchivan State Universty*
- *Huseyn Ghasimov - Nakhchivan State University*
- *Gülnoz Hallieva - Uzbekistan State World Languages University*
- *Ali Hashimov - Nakhchivan State Universty*
- *Leyla Ibrahimova - Nakhchivan State University*
- *Eltun Ibrahimov - Nakhchivan State University*
- *Dashqın Khanbarov - Nakhchivan State University*
- *Samira Mammadova - Sumgayit State University*
- *Ishak Pacal - Igdir University*
- *Sevtap Tırınk - Igdir University*
- *Mehmet Topuz - Van Yuzuncu Yil University*
- *Fikret Turkan - Igdir University*
- *Arzu Unal - Igdir University*
- *Elburus Valiyev - Nakhchivan State Universty*
- *Çulpan Zaripova Chetin - Kafkas Universitesi*
- *Türkanə Aliyeva - Nakhchivan State Universty*

# Content


| | |
|---|---|
| **Səbinə Qasımova**<br>*Azərbaycanın turizm potensialının coğrafi xüsusiyyətləri*<br>*Geographical characteristics of Azerbaijan's tourism potential* | **5-12** |
| **Xəqani İsmayılov, Sadiq İsmayılov**<br>*Fiziki tərbiyə nəzəriyyəsində gənclərin dözümlülüyünün artırılması*<br>*Increasing young people's endurance in physical education theory* | **13-20** |
| **Həmidə Seyidova, Ənvər İbrahimov**<br>*Naxçıvan Muxtar Respublikasında yayılan kisəli makromisetlərin taksonomik spektri və istifadə imkanları*<br>*Distribution and utilization possibilities of ascomycete macromycetes in the Nakhchivan Autonomous Republic* | **21-32** |

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904




Original Research Paper

# AZƏRBAYCANIN TURİZM POTENSİALININ COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

**Səbinə Əfail qızı Qasımova**
*https://orcid.org/0009-0000-0229-440X*

[1] Naxçıvan Dövlət Universitetinin, Naxçıvan, Azərbaycan

Article history
Received: 05.07.2026
Revised: 11.07.2026
Accepted: 21.07.2026

*Corresponding Author: Səbinə Qasımova, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan, Azərbaycan
Email: *sebineq070@gmail.com*

**Xülasə**
Azərbaycan əlverişli coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, tarixi-mədəni irsi və qonaqpərvərlik ənənələri ilə turizm sahəsinin inkişafı üçün böyük potensiala malik ölkələrdən biridir. Məqalədə Azərbaycanda turizmin formalaşma və inkişaf mərhələləri, bu sahənin iqtisadi və sosial əhəmiyyəti, həmçinin dövlət tərəfindən həyata keçirilən turizm siyasəti təhlil olunur. Araşdırmada göstərilir ki, Azərbaycanın turizm tarixi qədim dövrlərə, Böyük İpək Yolunun ölkə ərazisindən keçdiyi dövrə gedib çıxır. Müxtəlif tarixi mərhələlərdə ölkənin şəhərləri beynəlxalq ticarət və səyahət mərkəzləri kimi inkişaf etmiş, müstəqillik dövründə isə turizm iqtisadiyyatın prioritet sahələrindən birinə çevrilmişdir. Xüsusilə "Turizm haqqında" Qanunun qəbul edilməsi, dövlət proqramlarının həyata keçirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlıq, elektron viza sisteminin tətbiqi və müasir turizm infrastrukturunun yaradılması bu sahənin inkişafına mühüm təkan vermişdir. Məqalədə Azərbaycanın zəngin təbii landşaftları, milli parkları, dağ-xizək mərkəzləri, tarixi abidələri və müalicə-sağlamlıq resurslarının turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli şərait yaratdığı vurğulanır. Eyni zamanda, turizm sektorunun məşğulluğun artırılması, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, ölkənin beynəlxalq imicinin gücləndirilməsi və qeyri-neft sektorunun inkişafındakı rolu qiymətləndirilir. Nəticə olaraq qeyd edilir ki, mövcud potensialdan daha səmərəli istifadə, xidmət keyfiyyətinin yüksəldilməsi, beynəlxalq təbliğatın genişləndirilməsi və davamlı inkişaf prinsiplərinin tətbiqi Azərbaycanın turizm sənayesinin gələcək inkişafını təmin edən əsas amillərdir.
**Açar sözlər:** *Azərbaycan, turizm, turizm potensialı, turizm siyasəti, Böyük İpək Yolu, Dövlət Turizm Agentliyi, iqtisadi inkişaf,*

## Giriş

Dünya iqtisadiyyatında turizm xüsusi bir sahəni təşkil edir. Azərbaycanda da istər daxili, istərsə də xarici turizm imkanları olduqca genişdir. Dünyada gedən proseslər də bu sahənin ölkələrin iqtisadi inkişafına təsirini artırır. Bu maliyyə axınının təmin olunmasında önəmli yerlərdən birini tutur. "*Turizm üzrə rəqabətqabiliyyətlilik siyahısında Azərbaycan 148 ölkə arasında 39-cu yerdə qərarlaşmışdır. Turizm Azərbaycanda iqtisadiyyatın ayrıca sektoru kimi mövcuddur. Ümumdünya Səyahət və Turizm Şurasının*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 5-12
DOI: https://doi.org/10.5281/zenodo.21468693

*hesabatına əsasən Azərbaycan 2010–2016-cı illərdə turizmin ən sürətlə inkişaf etdiyi 10 ölkə arasına daxil olmuşdur*" (World Economic Forum, 2013; World Travel & Tourism Council, 2017)

Azərbaycan dövlətinə ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə əlaqəli olmuşdur. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar. Qədim ipək yolu üzərində yerləşən Azərbaycan coğrofi olaraq qərb və Şərq arasında keçid rolunu oynamış və səyyahların, ticarətçilərin keçid yeri olmuşdur. Antik müəlliflərin məlumatlarına görə Böyük İpək Yolunun ən fəal hərəkətli trasslarından biri Qafqaz Albaniyasının ərazisindən (Müasir Azərbaycan Respublikasının ərazisində yerləşən qədim dövlət) keçirdi. Bu yol elmi dairələrdə Strabon yolu kimi daha məşhurdur. Belə ki, filosof və tarixçi Strabon bu yol haqqında ilk dəfə müfəssəl surətdə ətraflı məlumat vermişdir. *"Strabonun yazdığına görə hind mallarının böyük əksəriyyəti Orta Asiya ərazisindən keçərək çaylarla Gürgan (Xəzər) dənizinə, sonra dəniz vasitəsilə Albaniyaya və Kir (Kür) çayı ilə İberiyaya (Şərqi Gürcüstan), oradan isə Pont Evksinskiyə (Qara dənizə) aparılırdı" (Strabo, 1928, Book XI)* Böyük İpək Yolu trassları üzərində yerləşən şəhərlərin mühüm rolu qeyd olunurdu.

Hələ qədim zamanlardan marşrut boyu yerləşən şəhərlər beynəlxalq status alırdı. Çünki əcnəbi tacirlər və karvanları qəbul edən və xidmət göstərən belə şəhərlər müvafiq infrastrukturlara malik olmalı idilər. Çoxillik arxeoloji tədqiqatlar göstərir ki, Böyük İpək Yolu ilə gətirilən antik mallar əsas anbar məntəqələrində Mingəçevirdə yerləşdirilir və buradan da Qafqaz Albaniyasının digər şəhərlərinə göndərilirdi. Bu şəhərlərin əksəriyyəti Mingəçevirin yaxınlığında yerləşirdi. Antik mənbələrdə qeyd olunan Qafqaz Albaniyası paytaxtı – Qəbələ, Şamaxı və Bərdə şəhərlərində aparılan çoxillik irimiqyaslı arxeoloji qazıntılar bu məlumatları təsdiq edir. Bu cür təsəvvür etmək olar ki, Orta Asiya, Hindistan və Çindən Mingəçevirə gətirilən malların bir hissəsi Gürcüstana və Qara dəniz sahillərinə göndərilir, bir hissəsi isə Mingəçevirdən ticarət yolu (trassı) ilə yayılırdı. Bu trasslardan biri Bərdədən cənuba Naxçıvan–Kiçik Asiya istiqamətində digəri isə Mingəçevirdən Qəbələ–Böyük Qafqaz sıra dağlarının cənub ətəkləri və Xəzər sahili boyunca Şamaxı–Dərbənd Şimali Qafqaz istiqamətində gedirdi.

İpək yolu trassı üzərində Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Nuxa (Şəki) Azərbaycanın şimalında mühüm beynəlxalq ticarət mərkəzlərinə çevrilmişdi.

**Böyük coğrafi kəşflərdən XIX əsrin sonlarına qədər olan mərhələ**

Rusiyadan İrana və Hindistana gedən dəniz və quru yollarının ayrıcında yerləşən Bakının XIV əsrin ortalarında Qərblə Şərq arasında ticarət əlqələrində böyük rolu var idi. Ağ dənizdən Volqa çayı vasitəsilə Xəzər dənizinə və sonra İran və Hindistana aparan Volqa–Xəzər dəniz yolu, Bakıda yeni karvansaraların tikilməsinə səbəb oldu, bunların ölüçüləri əvvəlki dövrlərdə inşa edilənlərə nisbətən daha böyük idi. Müxtəlif zamanlarda Azərbaycana səyahət edən tarixçilər və səyyahlar karvansaraları öz

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.21468693

səyahətnamələrində qeyd etmişlər. Hazırda bunlardan Multanı (XII–XIV), Buxara (XIV–XVI), Fars, Ləzgi və s. bizim günlərə gəlib çıxmışlar.

*"Müxtəlif dövrlərdə Azərbaycanda olmuş səyyahların, tacirlərin, diplomatların (Marko Polo, Ryui Qonzales Klaxvio, Afanasi Nikitin, İosafat Barbaro, Ambrozio Kontarini, Antoni Cenkinson, Vinçenzo Alessandri, Sadko, Övliya Çələbi, Fyodor Kotov) səyahətnamələrində olan qeydlər Azərbaycan xalqının hələ o zaman ümumdünya tarixi tərəqqi prosesində layiqli yer tutduğunu göstərir." (Azərbaycan Milli Elmlər Akademiyası, 2007)*

**XIX əsrin sonu XX əsrin ortalarına qədər olan kütləvi turizm mərhələsi**

XIX əsrin sonlarında XX əsrin əvvəllərində Bakının karvansaralarında qonaqlar üçün komfort şərait yaratmaq məqsədilə karvansara binalarında yenidənqurma işləri aparılaraq, onlar mehmanxana kimi istifadə olunurdu. Rusiya imperiyası tərkibinə daxil olduqdan sonra Azərbaycanda turizm–ekskuriya işinin inkişafı Rusiya ilə bağlı olmuşdur. Azərbaycanda mütəşəkkil turizmin tarixi 1908-ci ilə aid etmək olar. Belə ki, 1908-ci ildə Krım–Qafqaz dağ klubunun filiallarından biri Bakıda açılmışdı. Bakı bölməsi həm uzaq, həm yaxın ekskursiya səfərlərinin təşkili ilə məşğul olurdu. XIX əsrin sonu XX əsrin əvvəllərində turizmin inkişafına elmi və həvəskar cəmiyyətlər (coğrafiya cəmiyyəti, təbiəti sevənlər cəmiyyəti, xalq universitetləri cəmiyyəti və b.) diqqət yetirməyə başladılar.

**XIX əsrin sonlarından sonrakı mərhələ**

"Rusya Turizm Cəmiyyəti" (RTC), 1929-cu ildə "Proletar Turizm Cəmiyyəti" (PTC) adlanana qədər ölkədə əsas turizm hərəkatının mərkəzinə çevrilmiş, müxtəlif şəhərlərdə o cümlədən Bakıda yerli şöbələri açmışdı. Cəmiyyətin (yəni RTC-nin) əsas vəzifələri – zəhmetkeşlər arasında öz fəaliyyət turizminin inkişafı, turizmə geniş, mütəşəkkil ictimai hərəkat forması vermək, diyarşünaslıq elementlərinin turizmə təqbiq olunması və.s. idi. PTC əsas məqsədi isə turizmin tətbiq olunması, kütləvi hərəkata çevirmək, zəhmetkeşlərin müxtəlif təbəqələrini (əsasən az təminatlı) əhatə etmək, turizmdən onların siyasi və mədəni səviyyəsinin artmasına vasitə kimi istifadə etmək olmuşdu. PTC–nin vəzifələri ölkədə sosializm quruculuğunun məqsədləri ilə tam uyğun idi. Ona görə də 1930-cu ilin mart ayında SSRİ Xalq Komissarlığı "Sovtur" səhmdar cəmiyyətini ilə PCT–nin birləşdirilməsi haqqında qərar qəbul etdi və Ümumdünya Könüllü Proletar turizm və ekskursiyaçılar cəmiyyəti (ÜKPTEC) yaradıldı.1922-ci ildə Bakıda ilk ekskursiyaçı dərnəkləri yaradıldı. Ekskurisyalar əsasən Bakının zavod, fabrik və neft mədənlərində çalışan fəhlələrin digər istehsalat sahələri ilə tanış olmaq xarakteri daşıyırdı. Yay aylarında Xəzər sahilinə – Mərdəkan, Şüvəlan, Buzovna, Türkan, Zığ, Artyom adası və Şıx zolağına istiraht məqsədli eksursiyalar təşkil olunurdu. 1927-ci ildə 450 esksurisya gəzintisi keçirilmişdi. Bu illərdə Azərbaycanda turizm-ekskursiya fəaliyyəti ilə məşğul olan ən fəal Həmkarlar İttifaqları olmuşdur. Azərbaycanda 1929-cu ildən Proletar turizm və ekskursiyalar cəmiyyətinin bölməsi kimi fəaliyyət göstərən AZPTEC 1935-ci ildən

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 5-12
DOI: https://doi.org/10.5281/zenodo.21468693

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi nəzdində fəaliyyətə başladı. Bununla əlaqədar, Azərbaycan SSR Xalq Komissarları Şurasının 11 may 1935-ci il tarixli 476 nömrəli qərarı əsasında turizm ekskursiya işini daha da yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər görüldü. Kirovabad (indiki Gəncə) şəhərində AZPTEC Kirovabad raysovetinin bazası yaradıldı, Hacıkənddə turbaza üçün 3 ev kirayəyə götürüldü, Göygölün sahilində 20 yerlik çadır düşərgəsi təşkil olundu.

**Müstəqillik dövrünə qədər (1950–1991)**

Turistlərin səyahətlərinin və istirahətlərinin maraqlı keçməsi üçün turbazalarda velosiped və atlarla yürüşlər və gəzintilər təşkil olunurdu. 1936-cı ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi turizmin ölkədə gələcək inkişafın könüllü özfəaliyyət cəmiyyəti çərçivəsində az səmərəli olduğunu nəzərə alaraq, 17 aprel 1936-cı il tarixli qərarı ilə Proletar turizmi və ekskursiyalar cəmiyyətini ləğv etdi. 1940-cı ildən turizm sahəsində fəxri adlar tətbiq olunmağa başladı. Xüsusi xidmətlərə görə "SSRİ turisti" döş nişanı ilə təltif olunurdular. İkinci dünya müharibəsi illərində bütün SSRİ–də olduğu kimi Azərbaycanda da turizm ekskursiya fəaliyyəti dayandırıldı. Müharibədən sonrakı illərdə idman, özfəaliyyət, ailəvi və uşaq turizmi geniş vüsət tapmağa başladı.

1950-ci il sentyabr ayında Bakı turist bazası yaradıldı. O vaxtlar bu baza Nizami adına istirahət parkında yerləşdirildi. 1957-ci ildə Mingəçevirdə və Hacıkənddə turist bazaları təşkil olunur. 1958-ci ildə Zaqatalada, 1960-cı ildə Şuşada və Göygöldə turist bazaları fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, Azərbaycan Turizm ekskursiyalar idarəsi 1962-ci ildən Turizm üzrə Azərbaycan Respublika Şurası, 1969-cu ildən Turizm Ekskursiyalar üzrə Azərbaycan Respublika Şurası adlandırıldı. Zəhmətkeşlərin yay istirahətinin təşkili üçün 1962-ci ildən Nabranda (Xaçmaz rayonu) Bakı turist bazasının filialı kimi 150 nəfərlik "Sputnik" turist çadır düşərgəsi yaradıldı. 1963-cü ildə Bakıda turist klubu, Nabranda "Xəzər" turist bazası, 1965-ci ildə Bakıda, iki ildən sonra Gəncədə, Sumqayıtda, 1969-cu ildə Naftalanda və Bakının Mərdəkan qəsəbəsində ekskursiya büroları yaradıldı. 1970-ci ildə Zaqatalada və 1972-ci ildə Şuşada turist bazalarının yeni əsaslı binaları, 1975-ci ildə Qəbələdə Qafqaz və Xaçmaz rayonunun Nabran bölgəsində "Dostluq" turist bazası, elə həmin il Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi. Bir qədər əvvəl isə Xankəndində (1971) və Mingəçevirdə (1972) ekskursiya büroları açıldı.

Sonrakı illərdə Azərbaycanın müxtəlif rayonlarında; Naxçıvanda 1978-ci ildə ilk turizm təşkilatı (Səyahətlər və ekskursiyalar bürosu) yaradıldı. 1970–1987-ci illər ölkədə sosial turizmin perspektiv inkişafı ilə xarakterizə olunurdu. Xarici turizmin maddi–texniki bazasını genişləndirmə məqsədilə 1973-cü ildə Bakıda Azərbaycan Respublikasında ən böyük mehmanxana kompleksi olan 1942 yerli Azərbaycan mehmanxanası istifadəyə verildi. 1978-ci ildə "İnturist" səhmdar cəmiyyətinin tabeliyində 200 yerlik komfortlu Moskva mehmanxanası da əlavə edildi.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

*“1983-cü ildə Xəzərin Azərbaycan sahillərində Ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması barədə müvafiq qərar qəbul olundu. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Sovetinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərarına əsasən Azərbaycan Respublikasında 2000-ci ilə qədər Turizmin inkişaf sxemi tərtib edildi.” (Azərbaycan.com, n.d.)*

Turizm sahəsi ilə məşğul olan mütəxəssislərin fikrincə Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə 1987-ci ildə nail olmuşdur. Həmin il respublikaya xarici ölkələrdən 50, SSRİ–nin müxtəlif bölgələrindən isə 250 minə yaxın turist gəlmişdir. Azərbaycana turist axını gücləndiyindən Lənkəran və Mingəçevir şəhərlərində hərəsi 300, Şuşa şəhərində 200 yerlik yeni turist mehmanxanalarının tikintisinə, Bakı şəhərindəki Qarabağ turist mehmanxanasında isə yenidənqurma işlərinə başlanıldı.

1988-ci ildə Dağlıq Qarabağ muxtar vilayətində və onun ətrafında baş verən hadisələr nəticəsində Azərbaycana daxili və xarici turistlərin axını xeyli azalmışdır. Xankəndi, Şuşa, Sumqayıt, sonra isə Bakıda fövqəladə vəziyyətin tətbiqi, əslində respublikanın bu regionlarında bir sıra turizm təşkilatlarının fəaliyyətlərinin dondurulmasına səbəb oldu. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri düşmənçilik siyasəti Azərbaycana yüz minlərlə qaçqının gəlməsi ilə nəticələndi. Azərbaycan hökumətinin qərarı ilə 1988-ci ilin dekabrında Ermənistandan qovulmuş azərbaycanlıların respublikanın turist bazarlarında yerləşdirilməsinə başlanıldı.

**Müstəqillikdən sonrakı mərhələ**

1990-cı ilin I rübündən etibarən Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. Müharibə və sərhədlərdəki qeyri–stabil vəziyyət turizm sistemində başqa problemlərin yaranmasına da səbəb olmuşdur. Məsələn, Həmkarlar ittifaqları sistemində mövcud olan 10 turist bazasının ikisi işğal olunmuş ərazilərdə qalmış, qalan yerlərə isə yuxarıda qeyd olunan kimi məcburi köçkünlər yerləşdirilmişdir. 1991-ci ilin sentyabrında mövcud olan xarici turizm üzrə idarə ləğv olundu, onun yerinə isə Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xarici Turizm Şurası yaradıldı.

Turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında öz əksini tapdı. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi. 27 iyul 1999-cu ildə Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladı. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

*“2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turizm təşkilatına üzv oldu.” (United Nations World Tourism Organization, 2001)*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 5-12
DOI: https://doi.org/10.5281/zenodo.21468693

*“2001-ci ildə ilk dəfə olaraq Azərbaycanı tam genişliyi ilə təbliğ edən "Welcome to Azerbaijan" adlı xüsusi disk hazırlandı və ÜTT-nin Baş Assambleyasına təqdim olundu.” (Azərbaycan.com, n.d.)* Bununla yanaşı, diskin "Tourism in Azerbaijan" adlı veb-səhifəsi yaradıldı. 2002-ci ildə ilk dəfə Bakıda xarici ölkələrin turizm şirkətlərinin iştirakı ilə Beynəlxalq Turizm Sərgisi təşkil olundu və ÜTT-nin dəstəyini qazandı.

*“Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002–2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu.” (Azərbaycan Respublikası Prezidenti, 2002)*

2000-ci illərin əvvəllərindən başlayaraq Bakı, Gəncə, Naxçıvan və ölkənin digər şəhərlərində xarici qonaqları qəbul edə bilən müasir mehmanxana və hotellər fəaliyyət göstərməyə başladı. “*Ölkənin bütün regionlarını əhatə edən 100-dən artıq turizm firması xarici turistlərin qəbulu və yerli əhaliyə turist xidməti ilə məşğul olur, 149 mehmanxana rəsmi qeydiyyatdan keçmişdir*.” (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, n.d.) Həmin hotellərdə yerlərin ümumi miqdarı 5000-dən artıqdır. Turizm üçün əlverişli regionlarda müasir səviyyəli özəl müalicə və istirahət mərkəzləri istifadəyə verilib. Ölkəyə gələn xarici qonaqların sayı 1 milyonu ötüb.

2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında Prezident fərmanları ölkə iqtisadiyyatının, o cümlədən turizm sektorunun inkişafı yolunda mühüm addımlar oldu. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. 2008-ci ildə Azərbaycana gələn turistlərin sayı bir milyon üç yüz min nəfəri ötüb keçdi. 2009-cu ilin aprel ayında Bakıda Heydər Əliyev adına İdman və Konsert Kompleksində (Heydər Əliyev adına İdman Arenası) artıq 8-ci dəfə Beynəlxalq Turizm Sərgisi keçirildi. Sərgidə 20 ölkədən 78 turizm müəssisəsi iştirak etmişdir.

"2009–2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı" Azərbaycanda yaxın gələcəkdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə zəmin yaradır.

2022-ci ildə Dövlət Turizm Agentliyinin məlumatına görə, qış mövsümündə Azərbaycana ən çox Rusiya, Türkiyə, İran və ərəb ölkələrindən qonaqlar gəlir və otellərdə qalan qış turizmi regionlarının 40% xaricilərdir.

2023-cü ilin yanvarında Azərbaycan Xarici İşlər Nazirliyi ölkəyə gəlmək istəyən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə elektron viza ərizəsi formasını doldurmaq imkanı verən "Viza Müraciət Portalı"nı istifadəyə verib. Daha sonra onlar bu anketi təsdiqləyib, baxılmaq üçün respublikanın diplomatik nümayəndəliklərinə və konsulluqlarına göndərə bilərlər.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 5-12
DOI: https://doi.org/10.5281/zenodo.21468693

Dünyanın sosial-iqtisadi resursları sırasında yer alan turizm sənayesi, çağdaş dövrün ən dinamik və populyar hesab olunan sahələrindəndir. Turizmin tədqiq və təhlili göstərir ki, bu sahənin yerləşmə arealı və istifadə imkanları hər zaman əsas götürülür. Turizmdən böyük gəlirlər əldə edən Amerika Birləşmiş Ştatları, Fransa, İspaniya, Türkiyə, İtaliya, digər Avropa və Şimali Amerika ölkələrində bu sənayenin rolu iqtisadi dövriyyə və marketinqdə xüsusi çəkiyə malik olmağı ilə şərtlənir. Beynəlxalq təcrübədən aydın olur ki, ölkələrin istehsal potensialı, gəlirlilik səviyyəsi və məşğulluğunun artırılmasında turizm sektorunun əhəmiyyətli təsiri var. *Ümumdünya Turizm Təşkilatının proqnozlarına əsasən, beynəlxalq turizm sənayesinin davamlı inkişafı nəticəsində xarici turistlərin sayı ildə orta hesabla 43 milyon nəfər artmaqla, 2030-cu ilədək 1,8 milyard nəfərə çatacaq. Yeni yaranmış turizm mərkəzlərində xarici turistlərin sayı ənənəvi turizm mərkəzləri ilə müqayisədə 2 dəfə çox olacaq* (UN Tourism, 2011). Proqnozlardan da aydın görünür ki, turizmin iqtisadiyyatdakı çəkisinin əhəmiyyəti çoxdur. Bütün bunları nəzərə alaraq, turizm sahəsinin dünyanın bir çox ölkələrinin sosial-iqtisadi inkişafının əsas təkanverici qüvvəsi hesab olduğu qənaətinə gəlirik.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatı modelini qəbul etmiş, beynəlxalq iqtisadi münasibətlərə fəal şəkildə inteqrasiya olunaraq dünyanın müxtəlif ölkələri ilə ticarət və investisiya əlaqələrini genişləndirmişdir.Bu əlaqələrin inkişaf etdirilməsi fonunda əməkdaşlıq turizm sahəsindən də yan keçməyib. Bu sahədə atılmış ilk addım -1999-cu ildə "Turizm haqqında qanun" və 2002-ci ildə qəbul edilmiş "2002-2005-ci illərdə Azərbaycanda turizminin inkişafı proqramı" sonrakı dövrlərdə ölkəmizdə turizm sektorunun inkişafı üçün zəmin yaradıb. Azərbaycanın turizm sahəsinin inkişaf etdirilməsi, gələcəkdə turist axınının sürətləndirilməsini təmin etmək üçün sonralar bir çox işlər görülüb. Ölkəmiz 2001-ci ildən etibarən Ümumdünya Turizm Təşkilatının Seulda keçirilən 14-cü Baş Assambleyasında təşkilata üzv qəbul edilib.Bu tarixi hadisədən sonra turizm sahəsinin daha da inkişaf etdirilməsi üçün lazımi şərait yaradılıb, sonrakı mərhələdə çoxsaylı addımlar atılacağı düşünülüb.

Son illər dövlət səviyyəsində bu sahənin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan məqsədyönlü tədbirlər öz müsbət təsirlərini göstərməkdədir. Ölkəmizdə turizmin müxtəlif növlərinin formalaşmasına, bu sahədə çalışan kadrların maarifləndirilməsinə dəstək olan "Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması və 2011-ci ilin "Turizm ili" elan edilməsi, əlbəttə, turizmin inkişafında mühüm nəticələr əldə olunmasına, Azərbaycanın qısa müddətdə dünyanın turizm mərkəzlərindən birinə çevrilməsinə şərait yaradıb. Eyni zamanda, 2015-ci ildə bu sektorda sahibkarlıq fəaliyyəti üçün lisenziya tələbinin ləğv edilməsi, 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi, habelə elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsini və "ASAN Viza" sisteminin yaradılmasını turizm sahəsinin inkişafı üçün görülən çoxşaxəli işlər sırasına aid etmək olar. Bu

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 5-12
DOI: https://doi.org/10.5281/zenodo.21468693

gün ölkəmizdə dövlətimizin başçısının həyata keçirdiyi səmərəli islahatların tərkib hissəsi sayılan Dövlət Turizm Agentliyinin yaradılmasından sonra turizm sənayesinin tərəqqi etməsi, daxili turizm potensialının dünya bazarına çıxarılması, eləcə də maddi-mədəni abidələrimizin turistlər üçün daha maraqlı məkana çevrilməsi istiqamətində genişmiqyaslı işlər görülməyə başlanılıb.

Dövlət Turizm Agentliyinin "Bir daha bax" (Take another look) şüarı ilə tanınan Azərbaycanın yeni turizm brendinin ötən ilin noyabrında Londonda "Dünya səyahət bazarı" (World Travel Market) sərgisində dünya ictimaiyyətinə təqdim edilməsini böyük uğurların başlanğıcı hesab etmək olar. Bir çox ölkələrdə təqdimatı keçirilən bu brend ölkəmizin qonağı olacaq hər bir xarici vətəndaşa Azərbaycanı daha yaxından tanıtmaq üçün yeni fürsətlər yaradır. Yerli və xarici mütəxəssislərin iştirakı ilə ərsəyə gələn brend bütövlükdə xalqımıza məxsus ən ali dəyərləri özündə birləşdirir. Bu gün Dövlət Turizm Agentliyinin nümayəndə heyəti çoxsaylı beynəlxalq görüşlər və danışıqlar vasitəsilə ölkənin turizm potensialının tanıdılması və ölkəyə çoxlu turistin cəlb olunması üçün önəmli görüşlər keçirir. Bu məqsədlə, turizm imkanlarımızın təbliğatı genişləndirilir, turizm biznesinin gələcək perspektivləri müzakirə olunur, qarışlıqlı əməkdaşlıq haqqında təcrübə mübadiləsi həyata keçirilir, eyni zamanda, hüquqi sənədlər imzalanır.

Dövlət Turizm Agentliyinin turizm strategiyasına uyğun olaraq, Rusiya, Türkiyə, Çin, Böyük Britaniya, Gürcüstan, Sinqapur, Latviya, Cənubi Koreya, Almaniya, Hindistan, Vyetnam, Mərkəzi Asiya və Yaxın Şərq Ölkələri ilə turizm sahəsində ikitərəfli əməkdaşlıq üçün qarışlıqlı səfərlər təşkil olunur, müvafiq danışıqlar aparılır. Ölkəmizin turizm potensialının sürətli təbliği və ondan istifadə imkanlarının təşviq olunması üçün artıq 6 xarici ölkədə turizm nümayəndəliyi fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, Azərbaycana gələn turistlərin sayında ilbəil artım müşahidə edirik. Misal olaraq qeyd edək ki, bu ilin yanvar-oktyabr aylarında ölkəmizə təşrif buyuran xarici ziyarətçilərin sayı 10,9 faiz artaraq təxminən 2 milyon 679 min nəfər olub. İlin sonunadək üç milyonuncu ziyarətçinin qarşılanmağı da proqnozlaşdırılır. Həmçinin ötən ilin oktyabr ayı ilə müqayisədə bu ilin eyni ayında ölkəyə gələn turistlərin sayında 25 faiz artım müşahidə edilib. Əlbəttə, son illərdə ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzləri - otellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması həm xarici, həm də yerli turistlərin bölgələrimizə marağını artırıb. Bu gün Dövlət Turizm Agentliyinin gördüyü işlər, Azərbaycan Turizm Bürosu, Qoruqları İdarəetmə Mərkəzi, Turizm informasiya mərkəzləri, Destinasiya Menecmenti təşkilatlarının (regionlarda turizmin inkişafı, təşviqi və idarə olunması), Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Hotel Assosiasiyası və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının koordinasiyalı şəkildə fəaliyyəti ölkəmizin turizm imkanlarından səmərəli şəkildə istifadə edilməsi və dəstək göstərilməsi ümumi işin xeyrinə atılan ən uğurlu addımlardır. Ölkəmizin coğrafi mövqeyi, iqlim şəraiti, flora və faunasının zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, yüksək qonaqpərvərlik ənənələri turizmin inkişafı üçün böyük perspektivlərə yol açan amillərdəndir. Odur ki, turizm sahəsində

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.21468693

mövcud olan geniş imkanlar bir çox beynəlxalq təşkilatlarla bu sahədə əməkdaşlıq etməyimizi zəruri sayır. Dövlət Turizm Agentliyinin hazırda bir neçə beynəlxalq təşkilat - Ümumdünya Turizm Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatla əməkdaşlıq etməsi turizm imkanlarımızın genişlənməsi və səmərəliliyin artırılmasına təsir göstərən faktorlardandır. Həmçinin agentliyin media qurumları ilə yaratdığı sıx və operativ əlaqələr də turizm imkanlarımızın təbliği və inkişafına müəyyən töhfələr verir.

Ümumi nəticədən çıxış edib bu qənaətə gəlirik ki, əməkdaşlıq əlaqələri dinamik sürətdə artırılır, təcrübə mübadiləsinə üstünlük verilir, turist məmnunluğu təmin edilir, ölkəmizin turizm strategiyası daha da təkmilləşdirilir, ölkəyə gələn turistin təhlükəsizliyinə diqqət göstərilir, habelə vətəndaş cəmiyyətinin yardımından faydalanmaqla qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir.

Ancaq buna baxmayaraq, ölkəmizin turizm potensialı və ondan istifadə imkanının səs-sorağı daha böyük coğrafiyaya yayılmalı, müsbət dinamika daha da güclənməlidir. Çünki Azərbaycanın mövcud imkanları daha böyük inkişaf üçün zəmin yaradır.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Azərbaycan Respublikası Prezidenti. (2002, 27 avqust). Azərbaycan Respublikasında 2002–2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının təsdiq olunması haqqında (Sərəncam № 1029). E-Qanun. E-Qanun – Dövlət Proqramının mətni*
2. *Azərbaycanda turizm haqqında . https://www.azerbaijans.com/content_890_az.html*
3. *Azərbaycan Milli Elmlər Akademiyası. (2007). Azərbaycan tarixi (3 cilddə, I cild). Bakı: Elm.*
4. *Republic of Azerbaijan Ministry of Foreign Affairs. (n.d.). Relations between Azerbaijan and UNWorld Tourism Organization (UNWTO). https://mfa.gov.az/en/category/international-organisations/relations-between-azerbaijan-and-un-world-tourism-organisation-unwto*
5. *Strabo. (1924). The Geography of Strabo (H. L. Jones, Trans., Vol. 3). Harvard University Press. https://penelope.uchicago.edu/Thayer/E/Roman/Texts/Strabo/home.html*
6. *Turizmlə bağlı layihələr və tədbirlər.* https://www.azerbaijans.com/content_911_az.html
7. *Tourism Towards 2030: Global overview.* UN Tourism
8. *World Economic Forum. (2013). The Travel & Tourism Competitiveness Report 2013: Reducing barriers to economic growth and job creation. https://www3.weforum.org/docs/WEF_TT_Competitiveness_Report_2013.pdf*


This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 5-12
DOI: https://doi.org/10.5281/zenodo.21468693

**ABSTRACT**

## Geographical Characteristics of Azerbaijan's Tourism Potential

**Sabina Gasimova**

**Nakhchivan State University**

Azerbaijan is one of the countries with significant potential for the development of tourism due to its favorable geographical location, rich natural resources, historical and cultural heritage, and strong traditions of hospitality. This article examines the formation and development of tourism in Azerbaijan, its economic and social significance, and the tourism policies implemented by the government. The study shows that the history of tourism in Azerbaijan dates back to ancient times, when the country was located along the Great Silk Road. Throughout different historical periods, Azerbaijan's cities developed as important international trade and travel centers, while in the years following independence, tourism became one of the priority sectors of the national economy. In particular, the adoption of the Law on Tourism, the implementation of state programs, cooperation with international organizations, the introduction of the electronic visa system, and the establishment of modern tourism infrastructure have significantly contributed to the sector's development. The article emphasizes that Azerbaijan's diverse natural landscapes, national parks, ski resorts, historical monuments, and health and wellness resources provide favorable conditions for the development of various types of tourism. Furthermore, the role of the tourism sector in increasing employment, accelerating regional socio-economic development, strengthening the country's international image, and promoting the non-oil sector is evaluated. The study concludes that the more efficient use of existing tourism potential, improvement of service quality, expansion of international promotion, and implementation of sustainable development principles are the key factors ensuring the future growth and competitiveness of Azerbaijan's tourism industry.

**Keywords:** *Azerbaijan, tourism, tourism potential, tourism policy, Silk Road, , State Tourism Agency, economic development, tourism infrastructure.*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904




Original Research Paper

# FİZİKİ TƏRBİYƏ NƏZƏRİYYƏSİNDƏ GƏNCLƏRİN DÖZÜMLÜLÜYÜNÜN ARTIRILMASI

**Xəqani İsmayılov[1], Sadiq İsmayılov[1]**
https://orcid.org/0009-0006-5537-0027
[1] *Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan*

Article history
Received: 06.07.2026
Revised: 15.07.2026
Accepted: 21.07.2026

*Corresponding Author: *Xəqani İsmayılov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;*
Email:
xeqaniismayilov984@gmail.com

**Xülasə**
Məlumdur ki, fiziki tərbiyyə prosesində idman hazırlığı böyük əhəmiyyət kəsb edir. Məktəbəqədər tərbiyyə müəssisələrində verilən nəzəri biliklər uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq aparılır. Məqalədə məktəbəqədər yaşa uşaqların fiziki tərbiyəsi, məktəbəqədər tərbiyə müəssisələrinin təlim-tərbiyə proqramına uyğun daxil edilməsi, bədən tərbiyəsi məşğələsi formalarının həyata keçirilməsi göstərilmişdir. Əlavə olaraq bu vasitələr, yüksək səviyyəli mütəxəssislər tərərfindən həyata keçirilərək yüksək idman nəticələri əldə ediləcəyinə şübhə doğurmur. Ümumiyyətlə uşağın fiziki tərbiyəsi böyüdükcə, onun boyu artdıqca da davam edə bilər Qeyd etmək lazımdır ki, insan təbiətini dəyişmək mümkün deyil, ancaq uşaq orqanizminin imkanlarından istifadə edib fiziki tərbiyəni daha yüksək səviyyəyə qaldırmaq mümkündür.
**Açar sözlər:** *Gənclərin dözümlülüyü; sağlam həyat tərzi; hərəki fəallıq; idman məşğələləri; fiziki kamillik*

## GİRİŞ

Fiziki tərbiyə sosial problem kimi. İctimai hadisə kimi fiziki tərbiyənin təhlili göstərir ki, müstəqillik şəraitində insanların fiziki tərbiyəsinin formalaşması və inkişafı qanunauyğunluqlarının əsaslarını müəyyənləşdirmək, quruluş xüsusiyyətlərini və funksiyasını aydınlaşdırmaq, konkretləşdirmək xüsusi əhəmiyyətə malikdir. İctimai hadisə kimi fiziki tərbiyənin ilkin inkişafı və yüksəlişi xalqın həyati düşüncələrində və məişətində özünü göstərir. Xalq pedaqogikasının bilicisi, məşhur tədqiqatçısı professor Əliheydər Həşimov xalqımızın fiziki tərbiyə haqqında fikirlərini ümumiləşdirərək yazırdı: “...fiziki inkişaf, güc, hünər, sağlamlıq kimi keyfiyyətlər zəhmətkeş xalq tərəfindən həmişə yüksək qiymətləndirilmiş və ciddi qayğı obyekti olmuşdur.

Müasir fiziki tərbiyə sistemində idman daha çox görünən “yeri” tutur. İdmanın nüvəsində yarış fəaliyyəti spesifik xüsusiyyətdir. Güc, qabiliyyət, bacarıq nümayiş etdirə bilmək idmançı üçün səciyyəvi keyfiyyətdir. İdmanda yarış fəaliyyəti ilk əvvəl mübahisə, bəhsləşmə, münaqişəli məsələləri həll etmək kimi xüsusiyyətləri özündə əks etdirir ki, burada davamlı olmaq ruhunda yetişdirməyi məsləhət vermişdir. Fiziki tərbiyə üzrə gigiyenik tələblərə əməl edilməsinin, təbii qüvvələrin, müxtəlif növ oyunların, məşqlərin, yaxşı qidanın böyük rolu olduğundan gənc nəslin tərbiyəsində onlardan geniş istifadə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 13-20
**DOI:** https://doi.org/10.5281/zenodo.21469204

olunmalıdır. Fiziki tərbiyə işində müvafiq idman növünü yeniyetmə və gənclərə yaxşı öyrətmək işində məşqçi vacibdir. Lakin adam müntəzəm surətdə öz üzərində çalışmaq yolu ilə də istədiyi idman növünə yiyələnə bilər və yiyələnməlidir: insanın fiziki qüvvəsi yüksək zehni, əxlaqi və iradi keyfiyyətlərlə vəhdət təşkil etməlidir. Fiziki tərbiyə məqsədi ilə istifadə edilən idman növləri, kollektiv oyunlar, yalnız fiziki inkişafı deyil, həm də insanda əxlaqi sifətlərin möhkəmlənməsinə yardım göstərməli, zehni və zövqü inkişaf etdirməlidir" [1, s.262].

İdman yarışlarından şagirdlərin bütün yaş qruplarında istifadə edilir. Lakin yarışlar hər yaş dövründə müxtəlif həcmdə və məzmunda tətbiq edilir. Tədqiqatçı Mobil Aslanlı idmanın insan həyatında rolu haqqında tədqiqatında yazır: "Yer üzünün əşrəfi, ən qüdrətli varlığı, dünya möcüzələrinin ən böyük möcüzəsi olan insanın sağlamlığı, onun yaradıcılıq imkanları müasir ekoloji böhranın çox ciddi narahatlıq yaratdığı bir zamanda daha böyük əhəmiyyət kəsb edir. Bu bir həqiqətdir ki, böyük elmi-texniki nailiyyətlər insanın sağlamlığını bədən tərbiyəsi və idman qədər möhkəmlədə bilmir. Əksinə, elmi-texniki nailiyyətlər tədricən fiziki əməyi sıxışdırıb aradan çıxardığına görə, təbiətən mütəhərrik olan insanın fiziki hərəkətlərini məhdudlaşdırır, bədən üzvlərinin ahəngdar inkişafına mane olur. Ümumi rəy göstərir ki, sağlamlığı möhkəmləndirmək üçün ən yaxşı amil bədən tərbiyəsi və idmandır. Sağlamlıq heç bir xəzinə ilə müqayisə edilməyəcək dərəcədə insan həyatına şənlik və xoşbəxtlik verir" [3, s.173].

İdmanda uşaqlarla məşğul olma təcrübəsi heyrətamiz müvəffəqiyyətlərlə zəngindir. Həmin müvəffəqiyyətlər bir çox hallarda perspektivsiz olsa da orada güclü uşaq xarakteri vardır. Müvəqqəti olaraq geri qalanların gözlənilmədən, təsadüfi kiçik müvəffəqiyyətini qeyd etməyin. Edilmiş bütün yaxşı səyləri həmişə başqaları üçün qeyd edin (qrup halında icra edilən taktiki səylər öyrənilərkən xüsusi əlverişli şərait yaranır). Qaradinməz, adamayovuşmaz uşaqlarla tez-tez söhbət edin (başqalarını yüksək dərəcədə təndiq etdikdə bu uşaqları yaxşılığa doğru dəyişdirir). Qadının məğrurluğuna və kişinin mənliyinə ehtiyatlı yanaşın. Həmişə fikirləşmək lazımdır ki, hər bir uşaq başqaları üçün nəyə görə maraqlı ola bilər. Cəza verərkən aşağıdakı qaydalardan istifadə etmək lazımdır: kollektivlə məsləhətləşmək, əgər kollektiv tərəfdardırsa, onda cəza vermək lazımdır, cəza verərkən uşağın mənliyinə alçatmaq olmaz [1, s.60-61].

Mütəhərrik oyunlar vacib vasitələr sırasında aşağı sinif şagirdlərinin tərbiyəsində mühüm yer tutur. Mütəhərrik oyunlar öyrədilmiş hərəkətlərin möhkəmlənməsində, təkmilləşməsində və fiziki keyfiyyətləri inkişafında kömək etməlidir. Mütəhərrik oyunların müxtəlifliyi imkan yaradır ki, məqsəd və şəraitə uyğun, yerli ənənələrin ahənginə uyğun dərs keçirilsin. Üzgüçülük və velosiped sürmək - gözəl vasitələrdir ki, tətbiqi hazırlıq məqsədlərini və dözümlüyü tərbiyə etməyə imkan verir. Axır vaxtlar bədən tərbiyəsinin vasitələri kimi idman elementləri istifadə edilir. Birinci növbədə elə idman növləri istifadə edilir ki, orada yüksək səviyyədə koordinasiya, gözəllik tələb olunur: akrobatika və bədii gimnastika, suya tullanma, üzgüçülük. Bu vasitələr, yüksək səviyyəli mütəxəssislər tərəfindən edilərkən yüksək idman nəticələri əldə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 13-20
**DOI:** https://doi.org/10.5281/zenodo.21469204

ediləcəyi şübhə doğurmur, ancaq bir şərtlə ki, dərslər uşaqların ümumi inkişafına və onun sağlamlığının möhkəmlənməsinə xələl gətirməsin. Səhhətində çatışmazlıq olan uşaqların, bədən tərbiyəsinin əlavə vasitələri kimi müalicə fiziki tərbiyədə və "korreksiya" gimnastikası idman hərəkətləri istifadə edilir [2, s.96-97].

Fiziki tərbiyə prosesi fiziki keyfiyyətlərin inkişafı və təlimi prosesidir. Bu anlayışlar biri-biri ilə əlaqəlidir və tərbiyəvi xarakter daşıyır. Fiziki tərbiyə prosesində o halda müsbət nəticələr əldə edilə bilər ki, biz onun idarə edilməsininin optimal yollarını müəyyənləşdirə bilək. Təlim prosesində təhsil vəzifələrinin (bacarıq və vərdişlərin formalaşdırılması, daha sonra onların təkmilləşdirilməsinin) həyata keçirilməsi başlıca məsələləridir. Bu işdə müəllimin rolu ondan ibarətdir ki, təlim anaların düşüncəsini hərəki bacarıq və vərdişlərin mənimsənilməsi işinə səfərbər etsin, istiqamətləndirsin. Təlim prosesi iştirakçıların inkişaf səviyyəsini nəzərə almağı vacib hesab edir. Ona görə də uşağın inkişaf perespektivini hər zaman diqqətdə saxlamaq lazımdır. Təlim tərbiyəedici və inkişafetdirici xarakter daşımalıdır. Təlimin uşağın psixologiyasına (yaddaş, emosiya və s.) təsir istiqaməti pedaqoji tələbdir. Şəxsiyyətin keyfiyyətcə formalaşması yalnız təlim prosesində mümkündür. Hərəki bacarıq və vərdişlər hərəki fəaliyyət prosesində formalaşdırılır. Hərəki bacarıq hərəki fəaliyyətin yerinə yetirlmə üsuludur, fiziki hərəkətin avtomatik idarə olunması qabiliyyətidir, texnikanın mənimsənilməsi səviyyəsini xarakterizə edir.

Fiziki tərbiyə iki spesifik cəhəti ilə fərqlənir: hərəkətverici fəaliyyət (hərəkət təlimi) və fiziki keyfiyyətlərin (qabiliyyətlərin) tərbiyəsi. Fiziki fəaliyyətin məktəblilərin həyatında müstəsna rolu vardır. Tədqiqatların nəticəsi sübut etmişdir ki, fiziki təmrinlərlə məşğul olmaq hissi orqanlarının, xüsusilə əzələ-hərəki hissiyyatın və müşahidə qabiliyyətinin inkişafına müsbət təsir göstərir. Bu zaman şagirdlərdə müşahidəçilik qabiliyyəti artır, ətrafdakılara qarşı diqqətlilik hissi formalaşır. Fiziki hərəkətlərlə mütəmadi məşğul olmaq əsəblərin sağlamlığı üçün əhəmiyyətlidir ki, bu da uşağın müvafiq əqli yüksəlişinə, hafizənin möhkəmliyinə əsaslı təsir göstərir. Tədqiqatların nəticələri göstərir ki, uşaqların gün rejiminə hərəki fəaliyyətin daxil edilməsi onlarda mənimsəmənin səviyyəsini 0,3-0,7 bal yüksəldir. "Bədən tərbiyəsi və idmanla müntəzəm surətdə məşğul olmaq beynin qidalı, təmiz qanla təchizini yaxşılaşdırır, mərkəzi sinir sisteminin funksional imkanlarını bütün sahələrdə yüksəldir ki, bu da, öz növbəsində, beynin əsas fizioloji fəaliyyəti olan oynama və tormozlanmanı tənzim edir. Bu proseslər daim qarşılıqlı əlaqədə olur. Orqanizmin hərəkəti sinir sistemində fəallıq yaradır, eləcə də sinir sistemində tormozlanma prosesinin baş verməsi fəallığın dayandırılması ilə bağlıdır" (Əhmədov, Rzayev, s. 34).

Beləliklə, insanın fiziki keyfiyyətlərinin tərbiyəsi (inkişafın idarəedilməsi) və hərəkətlərin öyrənilməsi (hərəki fəaliyyət) xüsusiyyətlərini özündə əks etdirən fiziki tərbiyə ümumi tərbiyə işinin bir növü, tərkib hissəsi kimi meydana çıxır. Fiziki tərbiyə insanın fiziki hazırlıq prosesinin sosial fəaliyyət (əmək, hərbi və s.) zamanı şərti yerində çıxış edir. Tərbiyənin digər növlərinin birliyində fiziki tərbiyə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 13-20
**DOI:** https://doi.org/10.5281/zenodo.21469204

hərtərəfli inkişafın əsas amillərindən biri kimi xüsusi əhəmiyyət qazanır. Fiziki tərbiyə – ictimai hadisədir. O cəmiyyətin qanunları üzrə cəmiyyətlə birlikdə inkişaf edir, yüksəlir. Fiziki tərbiyə təcrübəsinin sosial istiqaməti və onun təşkilati formaları konkret ictimai münasibətlərdən asılıdır. "Fiziki tərbiyə sistemi" anlayışı fiziki tərbiyənin müəyyən tarixi dövrdə sosial təcrübi tipini ifadə edir. Konkret ictimai formasiyanın şərtlərindən asılıdır. Onun təşkilati forması və məqsədyönlü şəkildə həyata keçirilməsi ictimai formasiyanın tələb və ehtiyaclarının məcmusuna bağlıdır. Fiziki tərbiyə sistemində yalnız fiziki tərbiyə üzrə ayrı-ayrı praktik hadisələr yox, həm də bu sistemin konkret olaraq cəmiyyətdə təşkilati və məqsədyönlü istifadəsi şərti olur. Fiziki tərbiyə sisteminin inkişafı şərtləri elementar və yüksək inkişaf münasibətlərindən, geniş sferada yayılması üçün məhdudiyyətlərin aradan götürülməsi məqsədilə təşəbbüslərdən, onun yaranması və inkişafına dövlətin qayğı və diqqətindən çox asılıdır (Kazımov, 2006).

## METODLAR

Məqalənizin metodoloji bazası pedaqogika, psixologiya və fiziologiya elmlərinin qabaqcıl prinsiplərinə əsaslandığından tədqiqat zamanı sistemli yanaşma metodu ilə fiziki tərbiyənin gənc nəslin fiziki, psixoloji və sosial inkişafına təsiri bir bütün olaraq təhlil edilmişdir. Şəxsiyyətyönümlü yanaşma təhsilalanların fərdi, yaş və cins xüsusiyyətlərinin nəzərə alınmasının təməlini təşkil etmiş, fəaliyyətyönümlü yanaşma ilə gənclərin fiziki hərəki aktivliyinin formalaşması prosesi öyrədici və təşkilati fəaliyyətlər kontekstində araşdırılmışdır. Məqalədə istifadə edilən nəzəri, empirik, statistik və digər metodlar mövzu ilə bağlı elmi-metodik ədəbiyyatın təhlili və ümumiləşdirilməsini, fiziki tərbiyə dərslərinin və şagirdlərin aktivliyinin pedaqoji müşahidəsini, statistik metodlar: rəqəmsal məlumatların (məsələn, şagirdlərin fiziki hazırlıq səviyyəsinin dəyişməsi) riyazi və statistik təhlilini həyata keçirməyə imkan yaratmışdır.

## NƏTİCƏLƏR

Fiziki tərbiyə nəzəriyyəsində bir sıra anlayışlar vardır ki, bunlardan aşağıdakıları göstərmək olar: fiziki mədəniyyət; fiziki tərbiyə; fiziki inkişaf; fiziki kamillik; fiziki təhsil; fiziki hazırlıq; fiziki məşğələ; hərəki fəallıq; hərəki fəaliyyət; idman. Fiziki mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissələrindən biri olub, insanın öz sağlamlığını möhkəmləndirməsi, fiziki qabiliyyətlərini inkişaf etdirməsi, onun çevik və gümrah böyüməsi üçün tarix boyu əldə edilmiş nailiyyətlərinin məcmusunu ifadə edir. Geniş anlayış kimi mədəniyyət üç yerə bölünür:

1. Cəmiyyətə aid fiziki mədəniyyət. Fiziki mədəniyyətin bu növü müəyyən konkret tarixi dövrdə cəmiyyətin əldə etmiş olduğu fiziki mədəniyyət təcrübəsindən ibarətdir.
2. Kollektivə aid fiziki mədəniyyət. Kollektivin fiziki mədəniyyəti kollektiv üzvlərinin fiziki qabiliyyətlərinin inkişafını əks etdirir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI:** https://doi.org/10.5281/zenodo.21469204

3. Fərdin fiziki mədəniyyəti. Bu növ mədəniyyət fərdin öz fiziki qabiliyyətlərinin inkişafı qayğısına qalması, sağlamlığını mühafizə etməsi, gümrah və çevik olmaqdan ömrü həyatı keçirdiyi tədbirlər sistemidir.

İdman kollektivlərində rəğbətləndirmə metodlarından da istifadə etməklə, idmançıların düzgün hərəkətlərini, müvəffəqiyyətlərini qiymətləndirirlər. Bu zaman rəğbətləndirmə vasitələrindən istifadə edilir. Tərifləmə, təşəkkür etmək, mükafatlandırma və s. metodları misal göstərmək olar. Rəğbətləndirmə metodlarından istifadə edən məşqçilər idmançılarda özünə inamı gücləndirirlər. Çünki hər bir idmançıya (istər zəif, istərsə güclü) böyük inamla yanaşdıqda o, daha da qələbə əzmi ilə çalışır.

İdman kollektivlərində bu üç metoddan başqa cəza vasitələrindən də istifadə olunur.

Məzəmmət etmək, danlamaq, töhmət vermək, maraqlı oyunlardan maraqsız oyunlara keçmək, oyundan xaric etmək, nəhayət, komandadan xaric etmək və s. vasitələrindən istifadə etdikdə kollektivdə sağlam əqidənin yaranmasına müvəffəq olunur (Aslanlı, 1993, s. 43–44).

## MÜZAKİRƏ

Uşaq dünyaya gəldiyi ilk gündən həyat üçün, yaşayış üçün uyğunlaşmağa başlayır. O, həyatın əsas qanunlarını mənimsəyir, xarici aləmin təsirlərinə məruz qalır. Bu andan da uşaq tədricən ətraf aləmə uyğunlaşma qabiliyyəti, bacarığını qazanır. Uşağın potensial imkanlarını nəzərə alan yaşlılar onlara müəyyən tərbiyəvi təsirlər göstərirlər. Hər şeydən əvvəl, uşağın fiziki sağlamlığı, onun mənəvi, intellektual, estetik inkişafı qayğıda əks olunur.

Orqanizmin sabitliyi, möhkəmləndirilməsi məqsədilə uşağın tez-tez dəyişən xarici aləmlə fiziki tərbiyə sistemini üzvi şəkildə əlaqələndirməyin başlıca vasitəsi kimi elmi şəkildə əsaslandırılmış rejimin, hərəki bacarıqların formalaşdırılması, yəni hərəki fəaliyyətin müxtəlif formalarının — səhər gimnastikası, mütəhərrik oyunların və idman çalışmalarının imkanları, yeri və rolu xüsusi qeyd olunmalıdır. Burada hava şəraitini nəzərə almaq vacibdir. Günəş, su və hava orqanizmin həyat qabiliyyətini, funksional imkanlarını genişləndirir, beynin inkişafına məqsədləndirici təsir göstərir, şəxsi keyfiyyətləri zənginləşdirir, fərd kimi xarici aləmə uyğunlaşmağa kömək edir, həmyaşıdlar və yaşlılarla ünsiyyət və münasibətlərin yaranmasına yardım göstərir (İsmayılov, 2015).

Professor Bəşir Əhmədovun da qeyd etdiyi kimi, hələ ötən əsrdə pedaqoji-metodik ədəbiyyatda rus dilindəki "fizkultura" anlayışını Azərbaycan dilində "bədən tərbiyəsi" şəklində tərcümə etmək ənənə halını almışdır. Bunu düzgün hesab etmək çətindir. Ona görə ki, həqiqətdə "fiziçeskaya" sözünü "bədən", "kultura" sözünü isə "tərbiyə" kimi tərcümə etməyi elmi cəhətdən əsaslandırmaq qeyri-mümkündür. Bundan əlavə, "tərbiyə" məfhumu pedaqoji anlayışdır, lakin "fizkultura" pedaqoji anlayışlar sırasına daxil deyildir. Qeyri-pedaqoji anlayış olan "fizkultura" ifadəsini pedaqoji anlayış olan "bədən tərbiyəsi" məfhumu ilə ifadə etməyə ixtiyarımız yoxdur (Əhmədov, Rzayev, s. 292–293). Fiziki tərbiyə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 13-20
**DOI:** https://doi.org/10.5281/zenodo.21469204

nəzəriyyəsində "fiziki kamillik" anlayışı daha çox və geniş anlamda işlədilən bir anlayışdır. Fiziki kamillik şəxsiyyətin fəaliyyətə (əməyə, təlimə və s.) fiziki cəhətdən hazır olması zəruriliyi ilə şərtləndirilən fiziki inkişaf səviyyəsini əks etdirir. Başqa sözlə, fiziki kamillik cəmiyyətin konkret tarixi dövrdə əldə etdiyi fiziki mədəniyyətlə şəxsiyyətin həmin mədəniyyətə optimal yiyələnməsi arasındakı nisbəti ifadə edir. Bu mənada o adamlara fiziki cəhətdən kamil şəxslər deyə bilərik ki, onlar fiziki mədəniyyətdən maksimum dərəcədə faydalanmış olsunlar, özlərini fəaliyyətə fiziki baxımdan günün tələbləri səviyyəsində hazırlaya bilsinlər.

Orqanizmin normal inkişaf şərti hərəki fəallıqdır. Məhz hərəki fəallıq uşaq orqanizminin həyat təminatının əsası kimi onun qamətinə, psixi-emosional vəziyyətinin inkişafına, funksional inkişafına və iş qabiliyyətinə təsir göstərir. Hərəki fəallığın azalması orqanizmin vəziyyətini, daxili orqanların funksiyasını və əzələ-əsəb sistemi fəaliyyətini pisləyir. Hərəki fəallıq yalnız uşağın fərdi xüsusiyyətlərindən asılı deyildir. Bu həm də sosial şəraitdən — uşaq müəssisələri və ailənin təşkilindən çox asılıdır (Kazımov, 2006). Bu bir həqiqətdir ki, böyük elmi-texniki nailiyyətlər insanın sağlamlığını bədən tərbiyəsi və idman qədər möhkəmlədə bilmir. Əksinə, elmi-texniki nailiyyətlər tədricən fiziki əməyi sıxışdırıb aradan çıxardığına görə, təbiətən mütəhərrik olan insanın fiziki hərəkətlərini məhdudlaşdırır, bədən üzvlərinin ahəngdar inkişafına mane olur. Ümumi rəy göstərir ki, sağlamlığı möhkəmləndirmək üçün ən yaxşı amil bədən tərbiyəsi və idmandır. Sağlam bədənsiz kifayət qədər təmin olunmuş həyat, həqiqi insan xoşbəxtliyi mənasızdır. Sağlamlıq heç bir xəzinə ilə müqayisə edilməyəcək dərəcədə insan həyatına şənlik və xoşbəxtlik verir (Aslanlı, 1993, s. 173).

Müasir fiziki tərbiyə sistemində idman daha çox görünən "yer" tutur. İdmanın nüvəsində yarış fəaliyyəti spesifik xüsusiyyətdir. Güc, qabiliyyət, bacarıq nümayiş etdirə bilmək idmançı üçün səciyyəvi keyfiyyətdir. İdmanda yarış fəaliyyəti ilk əvvəl mübahisə, bəhsləşmə, münaqişəli məsələləri həll etmək kimi xüsusiyyətləri özündə əks etdirir ki, burada yoldaşlıq münasibətlərinin qurulmasına səyləri birləşdirmək zərurəti yaranır. İdman çoxtərəfli ictimai hadisədir. Özünün tarixi inkişaf prosesində idman cəmiyyət mədəniyyətində fiziki və mənəvi rolunu açıq-aydın göstərə bilmişdir.

## NƏTİCƏ

Beləliklə, geniş mənada "idman anlayışı" — xüsusi yarış fəaliyyəti, ona xüsusi hazırlıq, insanlar arasında xüsusi münasibətlər və həmin münasibətlərin bu fəaliyyət sferasında yaradılması, onun nəticələrinin ictimai əhəmiyyəti ilə seçilir.

Tərbiyə üzrə fəaliyyət və şəxsiyyətin inkişafı müxtəlif yollarla həyata keçirilir. Burada mühüm rol oynayan növlərindən biri kimi sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərini göstərmək olar. Sinifdənxaric tərbiyə işləri tədrisdənkənar vaxtlarda şəxsiyyətin sosiallaşması üçün zəruri şərtlərin təmin edilməsi, onların müxtəlif növ fəaliyyətinin təşkili prosesidir. Bu növ işlər müəllimin müstəqil şəkildə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI:** https://doi.org/10.5281/zenodo.21469204

tərbiyə tədbirləri, dərslə qarşılıqlı əlaqədə olmaqla tərbiyə işlərinin həyata keçirilməsidir. Sinifdənxaric işlər fənn müəllimi, valideynlər və fəal şagirdlər tərəfindən aparılır.

Tərbiyə prosesində birinci və ikinci siqnal sisteminin qarşılıqlı təsiri zamanı şərtli reflekslə əlaqə formalaşır. Uşağın sosial aləmə fərdi uyğunlaşması onun şəxsi inkişafının harmoniyası, ətraf aləmə şüurlu münasibət, davranış mədəniyyəti, həyat rejimi, müxtəlif adət və vərdişlər qazanmasına kömək edir (Nərimanov, Əliyeva, & Nərimanov, 2004). İnsanın fərdiliyi hələ ilk uşaqlıq dövründən təzahür edir. Bu fərdiliyin əsasını əsəb sisteminin xüsusiyyətləri, anadangəlmə və irsi, yaş və sonradan qazanılmış keyfiyyətlər təşkil edir. Uşağın müxtəlif yaş dövründə psixi-əsəb xüsusiyyətləri onun inkişafında əhəmiyyətli rol oynayır. Orqanizmin potensial imkanları əsəb sisteminin xüsusiyyətlərindən, fiziki tərbiyənin düzgün təşkilindən asılıdır (Aslanlı, 1993, s. 28–29). Məktəbdənkənar tərbiyə işləri isə yetişən nəslin təhsil və tərbiyə sisteminin tərkib hissəsidir. Bu növ işlər şəxsiyyətin qabiliyyət və maraqlarının inkişaf etdirilməsi məqsədilə tədrisdən (məktəbdən) kənar həyata keçirilən tədbirlərdir. Bu zaman idraki tələbatlar, ünsiyyət, praktik fəaliyyət, gücün bərpa edilməsi və sağlamlığın möhkəmləndirilməsi işləri diqqətə çəkilir. Məktəbdənkənar işlər məktəbin təlim-tərbiyə prosesi ilə, yaşayış yerləri üzrə tərbiyə işləri və məktəbdənkənar tərbiyə müəssisələri ilə sıx əlaqədardır (Ağayev, Hüseynov, 1989, s. 55).

## ƏDƏBİYYATLAR


1. Həşimov, Ə. Azərbaycan xalq pedaqogikası / Ə.Həşimov, B.Sadıqov. – Bakı: Patronat, – 1933. – 321 s.
2. Paşayev, Ə. Pedaqogika / Ə.Paşayev, F.Rüstəmov. – Bakı: Nurlan, – 2007. – 294 s.
3. Aslanlı, M. Fiziki mədəniyyət və mənəvi kamillik / M.Aslanlı. – Bakı: Maarif, – 1993. – 150 s.
4. Əhmədov, B. Pedaqogikadan mühazirə konspektləri / B.Əhmədov, A.Rzayev. – Bakı: Maarif, – 1983. – 706 s.
5. Kazımov, N. Məktəb pedaqogikası / N.Kazımov. – Bakı: Çaşıoğlu, – 2006. – 458 s.


## ABSTRACT

## INCREASING YOUNG PEOPLE'S ENDURANCE IN PHYSICAL EDUCATION THEORY

**Khagani Ismayilov[1], Sadig Ismayilov[1]**

**Nakhchivan State University[1], Nakhchivan, Azerbaijan**

It is known that sports training is of great importance in the process of physical education. Theoretical knowledge given in preschool educational institutions is carried out in accordance with the age characteristics of children. The article shows the physical education of preschool children, their inclusion

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

in the educational program of preschool educational institutions, and the implementation of physical education classes. In addition, there is no doubt that these means, implemented by high-level specialists, will achieve high sports results. In general, physical education of a child can continue as he grows up and grows taller. It should be noted that it is impossible to change human nature, but it is possible to use the capabilities of the child's body and raise physical education to a higher level.

***Keywords:*** *Youth endurance; healthy lifestyle; physical activity; sports; physical perfection*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904




Original Research Paper

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YAYILAN KİSƏLİ MAKROMİSETLƏRİN TAKSONOMİK SPEKTRİ VƏ İSTİFADƏ İMKANLARI

**Həmidə Seyidova**
https://orcid.org/0000-0003-4861-3319

**Ənvər İbrahimov**
https://orcid.org/0000-0003-1632-5259

[1] Naxçıvan Dövlət Universitetinin, Naxçıvan, Azərbaycan

Article history
Received: 05.07.2026
Revised: 11.07.2026
Accepted: 26.07.2026

*Corresponding Author: Ənvər İbrahimov, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan, Azərbaycan
Email: anvaribrahimov@gmail.com

**Xülasə**
2010 - 2026-cı illərdə aparılan tədqiqatlar nəticəsində Naxçıvan Muxtar Respublikasında kisəli makromisetlərin növ müxtəlifliyi öyrənilmişdir. Gedilən ekspedisiyalar və ədəbiyyat məlumatlarına əsasən müəyyən olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası ərazisində kisəli makromisetlərin bir sinif (*Pezizomycetes* O.E.Erikss. Winka*)*, 3 fəsilə *(Morchellaceae* Rchb. *Helvellaceae* Fr., *Pezizaceae* Dumort.), 4 cinsə (*Morchella* Dill.ex.Pers., *Gyromitra* Fr., *Helvella* St. Am., Terfezia (Tul. C.Tul.) Tul. C.Tul.) daxil olan 8 (*Morchella esculenta* (L.) Pers., *M. conica* Fr., *M. crassipes* (Vent.) Pers., *M.elata* Fr., *Gyromitra gigas* (Krombh.) Gke., *Helvella lacunosa* Fr., *H. crispa* (Scop.) Fr., *Terfezia leonis* Tul.) növü yayılmışdır.
*Morchella* cinsi dörd növlə üstünlük təşkil etmiş, *Helvella*, *Gyromitra* və *Terfezia* cinsləri isə daha məhdud yayılmışdır. *Morchella crassipes, M. elata, Helvella lacunosa, H. crispa* və *Gyromitra gigas* növləri ilk dəfə Naxçıvan Muxtar Respublika mikobiotasına daxil edilmişdir ki, bu da bölgənin göbələk müxtəlifliyinin əvvəlki tədqiqatlarda tam öyrənilmədiyini göstərir. Kisəli göbələklərin əsasən Ordubad, Şahbuz,Şərur, Culfa və Babək rayonlarında daha geniş yayılması onların rütubət və iqlim şəraitindən güclü asılı olduğunu təsdiq edir. Müəyyən edilmiş növlər yalnız taksonomik baxımdan deyil, həm də qida, dərman, iqtisadi və ekoloji əhəmiyyətinə görə mühüm dəyərə malikdir. *Morchella* və *Terfezia* cinslərinə daxil olan növlərin yüksək bazar dəyəri və tibbi əhəmiyyəti onların qorunması və becərilməsinin vacibliyini göstərir.
Nəticələr göstərir ki, Naxçıvan Muxtar Respublika ərazisi kisəli göbələklərin yayılması üçün əlverişli regiondur. Gələcəkdə molekulyar identifikasiya metodlarının tətbiqi və bioekoloji xüsusiyyətlərin daha dərindən öyrənilməsi bu göbələklərin elmi və praktik istifadəsini daha da genişləndirəcəkdir.
**Açar sözlər:** *kisəl makromisetlər, cins, növ, sistematik qruplar, yayılma zonaları, istifadə imkanları*

## Giriş

Kisəli göbələklər (*Ascomycota*) göbələklər aləminin ən böyük şöbələrindən biri olub, təbiətdə maddələr dövranında, torpaqəmələgəlmə prosesində və bitkilərlə qarşılıqlı əlaqələrin formalaşmasında mühüm rol oynayır. Bu şöbəyə daxil olan makromisetlər yüksək qida dəyərinə, dərman əhəmiyyətinə və iqtisadi potensiala malik olduqları üçün dünyanın bir çox ölkələrində geniş şəkildə öyrənilir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325

Azərbaycanda kisəli makromisetlərin öyrənilməsi A.S.Sadıqov, S.A.Cəfərov, L.A. İsrafilbəyov və digər tədqiqatçıların işlərində öz əksini tapmışdır [2, 7]. Bununla belə, ölkənin ayrı-ayrı botaniki-coğrafi rayonlarında, xüsusilə Naxçıvan Muxtar Respublikasında bu qrup göbələklərin növ müxtəlifliyi və yayılma xüsusiyyətləri hələ də tam öyrənilməmişdir.

Naxçıvan Muxtar Respublikası müxtəlif hündürlük qurşaqları, kontinental iqlimi, zəngin bitki örtüyü və müxtəlif torpaq tipləri ilə seçildiyindən burada makromisetlərin formalaşması üçün əlverişli ekoloji şərait mövcuddur.

Naxçıvan Muxtar Respublikasının rəngarəng torpaq-iqlim şəraiti, yabanı və mədəni bitki florasının zənginliyi burada müxtəlif taksonomik qruplara daxil olan göbələk aləminin də formalaşmasına səbəb olmuşdur. Belə ki, muxtar respublikanın ərazisində müxtəlif sistematik qruplara aid göbələk növləri yayılmışdır. Bazidiomisetlər ərazidə daha çox üstünlük təşkil etməsinə baxmayaraq, tədqiqat dövründə yağıntılı və rütubətli mövsümlərdə kisəli makromisetlərin yayılmasının daha intensiv olduğu müşahidə edilmişdir.

Kisəli makromisetlərə əsasən muxtar respublikanın Şahbuz, Ordubad, Şərur, Babək və Culfa rayonlarının ərazisində daha çox təsadüf edildi.

Tədqiqatın məqsədi Naxçıvan Muxtar Respublikasında yayılan kisəli makromisetlərin növ tərkibini, taksonomik strukturunu, yayılma xüsusiyyətlərini və istifadə imkanlarını müəyyən etməkdən ibarətdir.

## Material və metodlar

Tədqiqatlar 2010–2026-cı illərdə Naxçıvan Muxtar Respublikasının Babək, Culfa, Ordubad, Şahbuz və Şərur rayonlarının müxtəlif təbii-ekoloji şəraitə malik ərazilərində aparılmışdır. Tədqiqat zamanı marşrut-ekspedisiya metodundan istifadə edilmiş, müxtəlif hündürlük qurşaqlarında yerləşən meşə, çəmən, kolluq və digər təbii ekosistemlərdə göbələk nümunələri toplanmışdır. Toplanmış nümunələrin bitmə yeri, substratı, yayılma xüsusiyyətləri, toplanma tarixi və ekoloji şəraiti qeydə alınmışdır. Növlərin təyini makro- və mikromorfoloji əlamətlərə, o cümlədən meyvə cisminin quruluşuna, papaqcığın və ayaqcığın morfoloji xüsusiyyətlərinə, sporların forma və ölçülərinə əsasən aparılmışdır. Mikroskopik əlamətlər işıq mikroskopu vasitəsilə öyrənilmişdir. Göbələklərin taksonomik mənsubiyyəti müvafiq determinantlar və elmi ədəbiyyat [2, 4, 9, 12] əsasında müəyyən edilmiş, növlərin nomenklaturası müasir beynəlxalq mikoloji sistematikaya **(**Index Fungorum**,** MycoBank**)** [10, 11] uyğunlaşdırılmışdır. Əldə olunan nəticələr əsasında Naxçıvan Muxtar Respublikasında yayılan kisəli makromisetlərin növ tərkibi, taksonomik strukturu, yayılma xüsusiyyətləri və istifadə imkanları qiymətləndirilmişdir.

## Müzakirə

Aparılan çoxillik tədqiqatlar göstərmişdir ki, Naxçıvan Muxtar Respublikasının müxtəlif təbii-ekoloji şəraiti kisəli makromisetlərin formalaşması və yayılması üçün əlverişli mühit yaradır. Tədqiqat dövründə aparılan ekspedisiyalar nəticəsində *Pezizomycetes* sinfinə aid 3 fəsilə, 4 cins və 8 növ müəyyən edilmişdir [4, 5, 8]. Bu, Naxçıvan Muxtar Respublikasında yayılan kisəli makromisetlərin taksonomik müxtəlifliyinin kifayət qədər zəngin olduğunu göstərir.

Müəyyən edilmiş növlər arasında *Morchella* cinsinin dörd növlə üstünlük təşkil etməsi göstərir ki, bu cinsin nümayəndələri regionun torpaq-iqlim şəraitinə daha yaxşı uyğunlaşmışdır. *Helvella* cinsinin iki, *Gyromitra* və *Terfezia* cinslərinin isə hər birinin bir növlə təmsil olunması tədqiqat ərazisində bu cinslərin yayılmasının nisbətən məhdud olduğunu göstərir.

Tədqiqatlar zamanı kisəli makromisetlərin əsasən Ordubad, Şahbuz, Şərur, Culfa və Babək rayonlarının meşə və dağətəyi ərazilərində daha geniş yayıldığı müəyyən edilmişdir. Xüsusilə yaz aylarında

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325

yağıntının nisbətən çox olduğu dövrlərdə növlərin meyvə cisimlərinin əmələ gəlməsi intensivləşmişdir. Bu isə həmin göbələklərin inkişafının torpağın rütubətindən və əlverişli iqlim şəraitindən əhəmiyyətli dərəcədə asılı olduğunu göstərir.

Aparılan müşahidələr nəticəsində *Morchella crassipes*, *Morchella elata*, *Helvella lacunosa*, *Helvella crispa* və *Gyromitra gigas* növlərinin Naxçıvan Muxtar Respublikasının mikobiotası üçün ilk dəfə qeydə alınması regionun göbələk müxtəlifliyinin əvvəlki tədqiqatlarda tam əhatə olunmadığını göstərir. Bu nəticə gələcək floristik və taksonomik tədqiqatların davam etdirilməsinin məqsədəuyğun olduğunu təsdiq edir.

Müəyyən edilmiş növlərin qida əhəmiyyəti də diqqəti cəlb edir. Belə ki, müəyyən olunmuş səkkiz növdən ikisi (*Terfezia leonis* və *Morchella esculenta*) yeməli, digər altı növ isə şərti yeməli göbələklər qrupuna aiddir. Bu növlərdən xüsusilə *Morchella esculenta* və *Terfezia leonis* yüksək qida dəyərinə malik olmaqla yanaşı, yerli əhali tərəfindən də istifadə olunur. Bu baxımdan onların təbii ehtiyatlarının qorunması, səmərəli istifadəsi və gələcəkdə becərilmə imkanlarının öyrənilməsi mühüm elmi və praktik əhəmiyyət kəsb edir.

Beləliklə, əldə olunan nəticələr göstərir ki, Naxçıvan Muxtar Respublikası kisəli makromisetlərin növ müxtəlifliyi baxımından Azərbaycanın perspektivli mikoloji regionlarından biridir. Regionun müxtəlif ekoloji şəraiti bu qrup göbələklərin yayılması üçün əlverişli şərait yaratmışdır. Gələcək tədqiqatlarda yeni ərazilərin öyrənilməsi, molekulyar identifikasiya metodlarının tətbiqi və növlərin bioekoloji xüsusiyyətlərinin daha ətraflı araşdırılması Naxçıvanın mikobiotası haqqında mövcud biliklərin daha da zənginləşdirilməsinə imkan verəcəkdir.

Aparılan tədqiqat Naxçıvan Muxtar Respublikasında kisəli makromisetlərin müasir taksonomik vəziyyətinin qiymətləndirilməsi, onların yayılma xüsusiyyətlərinin müəyyənləşdirilməsi və praktik istifadə imkanlarının dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb edir.

Naxçivan muxtar respublikasının müxtəlif ərazilərinə edilən ekspedisiyalar zamanı müxtəlif sistematik qruplara aid göbələklərlə yanaşı *Terfezia*, *Morchella*, *Gyromitra* və *Helvella* cinsinin nümayəndələrinə kütləvi şəkildə rast gəlindi. Ümumiyyətlə, Azərbaycan Respublikasında kisəli göbələklərin 25 növü yayılmışdır [2, s. 123, 3, s.171] ki, bunlardan da hələlik 8 növünə Naxçıvan Muxtar Respublikası ərazisində rast gəlinir [4, 5, 8].

Aparılan çoxillik (2010-2026) tədqiqatlar nəticəsində kisəli makromisetlərin (*Ascomycota*) növ tərkibi aşağıdakı kimi olmuşdur.

**Şöbə**: *Ascomycota* Caval.-Sm

**Sinif**: *Pezizomycetes* O.E.Erikss. Winka

**1. Fəsilə**: *Morchellaceae* Rchb.

**1. Cins:** *Morchella* Dill.ex.Pers.

1. *M. esculenta* (L.) Pers.
2. *M.conica* Fr.
3. *M. crassipes* ( Vent.) Pers.
4. *M.elata* Fr.

**2. Cins:** Gyromitra Fr.

5. *G. gigas* (Krombh.) Gke.

**2. Fəsilə:** *Helvellaceae* Fr.

**3. Cins:** *Helvella* St. Am.

6. *H. lacunosa* Fr.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325

7. *H. crispa* ( Scop.) Fr.

**3. Fəsilə:** *Pezizaceae* Dumort**.**

**4. Cins:** *Terfezia* (Tul. C.Tul.)

8. *T.leonis* Tul.

**1. Cins: *Terfezia* (Tul. & C. Tul.) Tul. & C. Tul.**

**1. *Terfezia leonis* Tul.** Meyvə cismi torpaq altında əmələ gəlir, dairəvi və ya bir qədər uzunsov, kartofa bənzər, 4 - 6 sm diametrində olur. Rəngi əvvəl açıq, sonra tündləşərək qonura çalır. Meyvə cisminin xarici qatı- peridiy dəri kimi, içərisi isə ətli, sulu olub birrəng deyildir. Kisələrin yerləşdiyi hissələr rəngsiz, ətrafları boz-bulanıq çəhrayıdır. Sporlar 17-25 mkm, dairəvi, ziyilli, açıq qonurdur. Xüsusi iyi və dadı yoxdur. Ədəbiyyat məlumatlarında [7] *Terfezia leonis* növü saproftrof mikoriza əmələgətirici olub Muxtar Respublika şəraitində daha çox taxılkimilərin əmələ gətirdiyi fitosenozlarda rast gəlinir.

A.S.Sadıqovun [2] tədqiqatlarında bu növə Azərbaycanın bozqır və dağətəyi bölgələrində (Ağdam, Fizuli, Qobustan, Naxçıvan və s.) yazda rast gəlindiyi göstərilmişdir. Naxçıvan Muxiar Respublikasında əsasən Şahbuz, Culfa, Babək, Şərur rayonları ərazilərində aşagı və orta dağlıq qurşaqlarda geniş yayılmışdır.

Növə 7.V.2010- cu ildə Daylaqlı kəndinin ətraf ərazilərində rast gəlinmişdir. Həmçinin, muxtar respublikanın müxtəlif ərazilərinə edilən ekspedisiyalar zamanı dombalana Babək rayonunun Nehrəm (16.IV.2010), Şərur rayonunun Dərəkənd (24.IV.2010) və Şərur rayonunun Tənənəm kəndlərinin (6.V.2010) ərazilərində də rast gəlinmişdir (4,5,8) (Şəkil 1).



Şəkil 1. *Terfezia leonis* Tul.

Dombalanın kütləvi yayılması aprelin axırları mayın əvvəllərinə təsadüf edir. Digər göbələklərdən fərqli olaraq onun meyvə cismi hər il deyil, yalnız əlverişli şərait olduqda inkişaf edir. Ədəbiyyat məlumatlarına əsasən Muxtar Respublika ərazisində dömbalana kütləvi şəkildə 1963, 1964 və 1967-ci illərə rast gəlindiyi qeyd edilmişdir. S.A.Cəfərovun [7] məlumatlarında isə bu göbələyə Azərbaycanda kütləvi şəkildə 1936, 1942, 1652, 1963 və 1964-cü illərdə təsadüf olunduğu göstərilir. Lakin 2010 - 2026- cu illərdə apardığımız tədqiqatlar nəticəsində ona yalnız kütləvi şəkildə 2010-cu ildə Şərur, Culfa və Babək rayonları ərazilərində rast gəlinmişdir.Göbələyə həmçinin 2024 –cü ildə kütləvi şəkildə Babək rayonunun Nəhəcir kəndində, 2026-cı ildə isə tək-tək nümunələrə rast gəlindi.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.21624325

2. Cins: *Morchella* Dill. ex Pers.

2. *Morchella esculenta* (L.) Pers.

= *Phallus esculentus* L.

Papaqcıq yumurtavari, hündürlüyü 5-6 sm, eni 3-4 sm, içi boş, kənarları ayaqcıqla birləşmişdir.Rəngi sarımtıl-noxudu, qonur, səthi dəyirmi oyuqludur. Ayaqcıq 3- 5 sm, 1,5- 2 sm, silindrik, içi boş, ağımtıl, uzununa şırımlıdır. Papaqcığın üst qatında- kisələrdə sporlar düzülmüşdür. Sporlar 15-20/12-14 mkm, rəngsiz, hamar, ellipsoidal olur (Şəkil  2.).



Şəkil 2. *Morchella esculenta* (L.) Pers.

*M.esculenta* Azərbaycanda yeməli növ kimi ilk dəfə olaraq A.S.Sadıqov [1] tərəfindən Ağsu aşırımı ətrafındakı meşəliklərdən (15.III.1978; 3.V.1978) və Şamaxı rayonu, Şərdil kəndi ətrafındakı meşəlikdən (3.V.1978) toplanılmışdır. Qarışıq meşələrin açıq sahələrində, çəmənliklərdə humuslu torpaqlarda rast gəlinir.

Tədqiqat ərazisində növ 16.V.2010- cu ildə Biçənək kəndi ətrafında meşəlikdən toplanılmışdır.

**3. *Morchella elata* Fr.** Papaqcıq 2-8 sm hündürlüyündə, 1-4 sm enində, yumurta və ya konusşəkillidir. Ayaqcıq 3-10 x 1-3 sm, silindrik, düz və üzərində oyuqlar görünür. Bəzi nümunələrdə aşağı hissəsi bir az qalınlaşır, bəzilərində isə tamamilə bərabər qalınlıqda olur. Ayaqcıq krem, sümük rəngli, kirli ağ tonlarında, bəzi yerlərdə isə qəhvə rənginə kimi tündləşir. Sporlar açıq və ya tünd krem rəngində və ya sarımtıl rəngdə olurlar (Şəkil 3).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325



Şəkil 3. *Morchella elata* Fr.

Papaqcıq üzərində formasına görə beyin qırışlarına bənzədiyi üçün bunlara beyin göbələyi də deyilir. Əvvəl krem və ya krem qəhvə rəngli olur, sonra isə rəngi tündləşir. Əsasən tünd rəng və ya qara tonlarda olur. Ətli hissəsi incə, bal mumu rəngində və sınan quruluşdadır. Dadı və iyisi gözəl, özünəməxsus aromatiklidir.

Meşələrdə şam və qovaq ağacları altında, qumlu və ya humusun miqdarı yüksək olan torpaqlarda tək-tək və ya qrup halında rast gəlinir. Bu növə əsasən aprel-may aylarında rast gəlinməklə, bəzi yerlərdə avqusta qədər görünə bilirlər. Yeməli növlərə aid edilir. Lakin bu cinsin növləri çiy və ya az bişmiş halda zəhərli olurlar. Bu növlərin hamısı yaxşı bişirələrək yeyilməlidir.

*Morchella* cinsinə aid növlərin zəhərlilik xüsusiyyətlərini bişirilərək və qurutma vasitəsilə aradan qaldırmaq olar [9, s.80].

02.V.2018-ci ildə Ordubad rayonunun Məzrə kəndindən toplanılmışdır. Naxçıvan mikobiotası üçün ilk dəfə verilir.

**4. *Morchella crassipes* (Vent.) Pers.** Papaqcıq 12 sm hündürlüyündə, 10 sm enində sarımtıl-boz qəhvəyi rəngə qədər dəyişir. Enli yumurtavari və ya oval, silindr-konusvari, zeytunu-qəhvəyi, küncvari dərin oyuqlu, kənar yuvacıqları qırmızımtıl-qəhvəyi, ağ, incə, kövrək olur. Yaxşı qoxusu vardır.

Ayaqcıq- 8x20- 4x8 sm, düz, əsasa doğru enli, aşağı hissəsi sarımtıl-ağ, dərə-təpəli, qatlı, kövrək, ağ, tünd krem rənginə qədər dəyişəndir. Göbələyin meyvə cisminə apreldən iyunun əvvəlinə qədər rast gəlinir (Şəkil 4).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325




Şəkil 4. *Morchella crassipes* (Vent.) Pers.

Yeməlidir. Təzə vaxtı və qurudulmuş halda istifadə olunur [9, s. 80].

Növ 02.05.2018-ci ildə Ordubad rayonunun Məzrə kəndindən su arxının kənarından toplanılmışdır. Naxçıvan mikobiotası üçün ilk dəfə verilir.

**5. *Morchella conica* Fr**. Papaqcıq 3-10 sm uzunluqda, silindrik, ağ və ya krem rəngli, hamar və içi boşdur. Ayaqcıq 2-8 sm uzunluqda. Silindrik, ağ və ya krem rəngli, hamar və içi boşdur. Ləti ağ və ya krem rəngli. Nazik, kövrək, xoş göbələk qoxusuna malikdir. Sporlar ellipsşəkilli, hamar, rəngsizdir. Meyvə cismi tamamilə içi boş olur ki, bu da *Morchella* cinsinin xarakterik əlamətlərindən biridir (Şəkil 5).

Növə əsasən yaz aylarında yarpaqlı və qarışıq meşələrdə, meşə kənarlarında, yanğın keçirmiş ərazilərdə və humusla zəngin torpaqlarda rast gəlinir. Növ 17.05.2017-ci ildə Culfa rayonunun Qazançı kəndindən toplanılmışdır. Qiymətli yeməli göbələk hesab olunur, lakin çiy halda yeyilməməlidir. İstifadən əvvəl yaxşı bişirilməsi vacibdir.



Şəkil 5. *Morchella conica* Fr.

**3. Cins: *Helvella* St. Am.**

**6. *Helvella lacunosa* ( Scop.) Fr.** Papaqcıq 2-4 sm hündürlükdə, 2,5 sm enində, düzgün olmayan 2-4 yəhərli, görünüşü yəhərvari, kənarı dalğalı və ya qıvrım olub, bəzi hissələri ayaqcığa birləşmiş, üst səthi açıq – sarımtıl, altı ağımtıldır. Ayaqcıq -2-7 /1-2 sm, silindrik, şırımlı, düz və ya bir qədər əyilmiş,

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325

ağımtıldır. Sporlar - ellipsoidal, 16,5-20 x 11-12,5 mkm, rəngsizdir (Şəkil 6).



Şəkil 6. *Helvella lacunosa* ( Scop.) Fr.

Enliyarpaqlı meşələrdə torpaqda yay və payızda rast gəlinir. Tədqiqat ərazisində torpaq üzərində rast gəlinmişdir. Şərti yeməli göbələklərdəndir. Qaynadıldıqdan sonra istifadə olunur (9, s.77).

Növ 17.05.2017- ci ildə Culfa rayonunun Qazançı kəndindən, 25.04.2018-ci ildə Ordubad rayonunun Biləv kəndindən (kütləvi şəkildə) torpaqdan toplanılmışdır. Naxçıvan mikobiotası üçün ilk dəfə verilir.

**7. *Helvella crispa* ( Scop.) Fr.** Papaqcıq 2-6 sm. enində, ağdan krem rənginə qədər dəyişir. Forması qeyri-müntəzəm, dalğalı və yəhərə bənzər görünüşə malikdir. Ayaqcıq 4-10 sm hündürlükdə, ağ rəngli, xüsusi qoxusu və dadı zəif hiss olunur. Sroplar - ellipsşəkilli, hamar, rəngsiz olur. Spor tozu ağ rəngdədir (Şəkil 7).

Yarpaqlı və qarışıq meşələrdə, humusla zəngin torpaqlarda bitir.

Növ 25.04.2018-ci ildə Ordubad rayonunun Biləv kəndindən torpaqdan toplanılmışıdır. Qida dəyəri yüksək hesab edilmir. Çiy halda yeyilməsi təhlükəlidir. Qaynadıldıqdan sonra istifadə olunur

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325



Şəkil 7. *Helvella crispa* ( Scop.) Fr.

**4. Cins: *Gyromitra* Fr.**

**8. *Gyromitra gigas* (Krombh.) Gke.** (neogyromitra gigas (Krombh.) İmaj). Papaqcıq 6-20 (25) sm diametrində, düzgün olmayan dəyirmi və ya oval, sonra kəhərvari, möhkəm qatlı, açıq-qəhvəyi, açıq-sarımtıl və ya açıq-zeytunu-qəhvəyi rəngdə olur. Ayaqcıq qısa, 3-6 sm uzunluğunda, ağ və ya ağımtıl olur (Şəkil 8).



Şəkil 8. *Gyromitra gigas* (Krombh.) Gke.

Əsasən rütubətli və qarışıq meşələrdə torpaqda rast gəlinir. Şərti yeməli göbələklərdən sayılır. Avropanın bəzi ölkələrində isə zəhərli göbələk kimi qeyd olunur [9, s. 81].

Növ 29.04.2018-ci ildə Ordubad rayonunun Biləv kəndi ərazisindən çəmənlikdən, 23.05.2018-ci ildə Ordubad rayonunun Gənzə kəndi əraisindən torpaqdan toplanılmışdır. Əsasən bu növə aprel-may

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325

aylarında rast gəlinir. Torpaq saprotrofudur. Naxçıvan mikobiotası üçün ilk dəfə verilir.

Beləliklə, Naxçıvan Muxtar Respublikası ərazisində kisəli makromisetlərin bir sinif, 3 fəsilə, 4 cinsə daxil olan 8 növü müəyyən olunmuşdur ki, bunlardan da 2 növü (*Terfezia leonis* Tul., *Morchella esculenta* (L.) Pers.) yeməli, 6 növü isə şərti yeməli göbələklər kateqoriyasına daxildir.

Qida əhəmiyyəti

Naxçıvanda yayılan kisəli göbələklərdən *Morchella esculenta* və *Terfezia leonis* yüksək qida dəyərinə malikdir. Onlar zülal, karbohidrat, vitamin və minerallarla zəngindir. Yerli əhali bu növləri həm təzə, həm də qurudulmuş halda qida kimi istifadə edir. Digər növlər - *Morchella elata, M. crassipes, Helvella lacunosa, Helvella crispa* və *Gyromitra gigas* yalnız bişirildikdən sonra yeməli olur, çiy halda zəhərlilik riski daşıyır.

Dərman əhəmiyyəti

*Morchella* növləri fenollu birləşmələr və polisaxaridlər sayəsində güclü antioksidant təsir göstərir. Onların ekstraktları immun sistemini gücləndirir və bəzi hallarda xərçəng müalicəsində köməkçi rol oynaya bilər. *Helvella* və *Gyromitra* növlərinin komponentləri bakteriya və göbələk infeksiyalarına qarşı təsirli ola bilər. *Terfezia leonis* isə bəzi bölgələrdə mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunmuşdur.

İqtisadi əhəmiyyəti

*Morchella* cinsinə daxil olan göbələklər dünya bazarında yüksək qiymətə satılır və ixrac potensialına malikdir. Onların süni şəraitdə becərilməsi kənd təsərrüfatında yeni sahə kimi inkişaf etdirilə bilər. *Terfezia leonis* də becərilmə potensialına malikdir. Göbələk toplama mövsümü isə bölgədə ekoturizmin inkişafına töhfə verə bilər.

Ekoloji əhəmiyyəti

Kisəli göbələklər torpaqda üzvi maddələrin parçalanmasını sürətləndirir və humus əmələgəlməsinə kömək edir. *Terfezia* cinsinə aid növlər bitkilərlə mikoriza əlaqəsi quraraq onların su və mineral maddələri mənimsəməsini yaxşılaşdırır. Bu göbələklərin yayılması bölgənin biomüxtəlifliyini qorumaqda mühüm rol oynayır.

## Nəticə

Aparılan çoxillik tədqiqatlar (2010–2026) göstərir ki, Naxçıvan Muxtar Respublikası kisəli makromisetlərin növ müxtəlifliyi baxımından Azərbaycanın ən perspektivli bölgələrindən biridir.

Müəyyən edilmiş səkkiz növ göbələkdən ikisi yüksək qida dəyərinə malik yeməli, altısı isə şərti yeməli növlərə daxildir. *Morchella* cinsinin dörd növlə üstünlük təşkil etməsi bu cinsin bölgənin torpaq-iqlim şəraitinə daha yaxşı uyğunlaşdığını göstərir. Ordubad, Şahbuz, Şərur, Culfa və Babək rayonlarında kisəli göbələklərin daha geniş yayılması onların ekoloji şəraitlə sıx bağlı olduğunu təsdiq edir. Bu göbələklər yalnız qida baxımından deyil, həm də dərman əhəmiyyəti, iqtisadi potensialı və ekoloji rolu ilə diqqəti cəlb edir.

*Morchella* və *Terfezia* cinslərinə daxil olan növlərin həm yerli əhali tərəfindən istifadə olunması, həm də bazar dəyərinin yüksək olması onların qorunması və becərilməsinin vacibliyini göstərir. Bu göbələklərin antioksidant, immunitet gücləndirici və antimikrob təsirləri tibbi baxımdan böyük əhəmiyyət daşıyır. Eyni zamanda, torpağın münbitliyini artırmaları və bitkilərlə mikoriza əlaqəsi yaratmaları ekoloji tarazlığın qorunmasına kömək edir.

Naxçıvan Muxta Respublika mikobiotası üçün ilk dəfə qeydə alınan *Morchella crassipes, Morchella elata, Helvella lacunosa, Helvella crispa* və *Gyromitra gigas* növləri bölgənin göbələk müxtəlifliyinin əvvəlki tədqiqatlarda tam öyrənilmədiyini göstərir. Bu fakt gələcək floristik və taksonomik araşdırmaların davam etdirilməsinin zəruriliyini ortaya qoyur.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.21624325

Beləliklə, Naxçıvan Muxtar Respublika ərazisində yayılan kisəli makromisetlər yalnız taksonomik baxımından deyil, həm də qida, dərman, iqtisadi və ekoloji əhəmiyyətinə görə mühüm təbii sərvət hesab olunur. Onların qorunması, səmərəli istifadəsi və becərilmə imkanlarının öyrənilməsi bölgənin elmi, iqtisadi və ekoloji inkişafına əhəmiyyətli töhfə verəcəkdir. Gələcəkdə molekulyar identifikasiya metodlarının tətbiqi və bioekoloji xüsusiyyətlərin daha dərindən araşdırılması Naxçıvan Muxtar Respublika mikobiotası haqqında bilikləri daha da zənginləşdirəcəkdir.

## ƏDƏBİYYAT


1. Sadıqov A.S. Azərbaycan mikroflorasında qeyd edilməmiş 2 növ yeməli göbələk // Azərbaycan SSR Elmlər Akademiyasının məruzələri, XXXV c, № 4, 1979, s.73-74
2. Sadıqov A.S. Azərbaycanın yeməli və zəhərli göbələkləri. Bakı: Elm, 2007, 124 səh.
3. Mehdiyeva N.Ə. Mikologiya. Bakı: Mütərcim, 2006, 300 s.
4. Seyidova H.S. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yayılan papaqlı göbələklər. Bakı: Ləman nəşriyyat poliqrafiya MMC, 2017, 168 s.
5. Seyidova H.S Naxçıvan Muxtar Respublikasında yayılan kisəli göbələklər // AMEA Mikrobiologiya İnstitutunun elmi əsərləri, 2012, cild 10, № 1, s,189-192
6. Ахундов Т.М. Микофлора Нахичеванской АССР, Баку, Элм, 1979, с.166
7. Джафаров С.А. Биология съедобного гриба Терфезиа леонис Тул. (Домбалан) и его распространение в Азербайджане // Известия АН Азерб. ССР, серия биологических наук, 1965, № 6, с. 15-22
8. Сейидова Г.С. Шляпочные грибы Шахбузского Государственного Природного Заповедника Нахчыванской Автономной Республики Азербайджана // Заповедное дело в Украине, 2010, т.16, вып. 2, с.36-40
9. Горленко М.В., Бондарцева М.А., Гарибова Л.В., Сидорова И.И., Сизова Т.П. Грибы СССР. М.: Мысль. 1980,303 с.
10. Index Fungorum https://www.indexfungorum.org/names/names.asp
11. MycoBank https://www.mycobank.org/
12. Seyidova, H.S., & Huseyin, E. Macrofungi of Nakhchivan (Azerbaijan) Autonomous Republic. *Turkish Journal of Botany*, 2012, 36(6), 761-768. https://doi.org/10.3906/bot1101-43


This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (4): page 21-32
DOI: https://doi.org/10.5281/zenodo.21624325

## ABSTRACT

# DISTRIBUTION AND UTILIZATION POSSIBILITIES OF ASCOMYCETE MACROMYCETES IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

**Hamida Seyidova**
***Nakhchivan State University, Nakhchivan, Azerbaijan***
***E-mail: hemide_seyidova@mail.ru***
***ORCID: 0000-0003-4861-3319***

***Anvar Ibrahimov***
***Nakhchivan State University, Nakhchivan, Azerbaijan***
***E-mail: anvaribrahimov@gmail.com***
***ORCID: 0000-0003-1632-5259***

During the research conducted between 2010 and 2026, the species diversity of ascomycete macromycetes in the Nakhchivan Autonomous Republic was studied. Based on field expeditions and literature data, it was determined that the territory of Nakhchivan hosts eight species of ascomycete macromycetes belonging to one class (*Pezizomycetes* O.E. Erikss. & Winka), three families (*Morchellaceae* Rchb., *Helvellaceae* Fr., *Pezizaceae* Dumort.), and four genera (*Morchella* Dill. ex Pers., *Gyromitra* Fr., *Helvella* St.-Am., *Terfezia* (Tul. & C. Tul.) Tul. & C. Tul.). The identified species are: *Morchella esculenta* (L.) Pers., *M. conica* Fr., *M. crassipes* (Vent.) Pers., *M. elata* Fr., *Gyromitra gigas* (Krombh.) Gke., *Helvella lacunosa* Fr., *H. crispa* (Scop.) Fr., and *Terfezia leonis* Tul.

The genus *Morchella* predominates with four species, while *Helvella*, *Gyromitra*, and *Terfezia* are more limited in distribution. The species *Morchella crassipes*, *M. elata*, *Helvella lacunosa*, *H. crispa*, and *Gyromitra gigas* were recorded for the first time in the mycobiota of the Nakhchivan Autonomous Republic, indicating that the fungal diversity of the region had not been fully studied in previous research.

Ascomycete fungi are most widely distributed in the districts of Ordubad, Shahbuz, Julfa, and Babek, which confirms their strong dependence on humidity and climatic conditions. The identified species are valuable not only from a taxonomic perspective but also for their nutritional, medicinal, economic, and ecological significance. The high market value and medical importance of species belonging to the genera *Morchella* and *Terfezia* highlight the necessity of their conservation and cultivation.

The results show that the territory of the Nakhchivan Autonomous Republic is a favorable region for the distribution of ascomycete fungi. In the future, the application of molecular identification methods and deeper study of bioecological characteristics will further expand the scientific and practical use of these fungi.

**Keywords:** *ascomycete macromycetes, genus, species, systematic groups, distribution zones, utilization possibilities*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
**Journal Manager:** Nahiba Asgarova
**Editors-in-Chief:** Huseyn Imanov, Zamin Babazade
**E-mail:** horizonmsj.com
**ISSN:** 3135-4890
**E-ISSN:** 3135-4904
**DOI:** https://doi.org/10.5281/zenodo.21725139

Horizon Multidisciplinary Scientific Journal is an international, peer-reviewed scholarly publication dedicated to advancing high-quality research across a broad spectrum of academic disciplines.

**Frequency:** Every months

**Format:** A4

**Languages:** Submissions are accepted in Azerbaijan, English and other major academic languages.

**Registration:** The journal is officially registered and published in Azerbaijan. All submissions undergo a rigorous peer-review process to ensure the highest academic standards.

**Open Access:** Horizon Multidisciplinary Scientific Journal is an international based on a full open access model. The journal provides immediate and permanent open access to all articles in order to ensure the free and unrestricted dissemination of scientific knowledge.

All scholarly materials published in the journal are completely free of charge for users, and no subscription or access fees are required. Readers are allowed to freely read, download, copy, print, and share the articles. Such use is permitted provided that proper citation is given and authors' rights are respected.

For further details and submissions, visit https://horizonmsj.com/index.php/hmsjournal/en/index.

The editorial board bears no responsibility for the content of the published materials.

All authors are solely accountable for the accuracy and integrity of their articles.

The views expressed by the authors do not necessarily reflect those of the editorial board.

Reproduction of any material is permitted only with proper citation of the journal.

All materials are published in the authors' original version.

Edition: Volume 1, Issue 4, July – 2026
Passed in press in July 2026
Printed in July, 2026
Printing: Horizon Multidisciplinary Scientific Journal,
20 street, office 118, Nakhchivan, Azerbaijan.

© Horizon Multidisciplinary Scientific Journal